www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 yanvar 2015-ci il Çərşənbə axşamı № 1 (6029) Qiymətі 40 qəpik

**Xəbər**

## Maşınların qiyməti bahalaşacaq

yazısı səh.13-də

**Gündəm**

### Səfər Əbiyevin adı ətrafında "Çexiya müəmması"



Sabiq müdafiə nazirinin başqa ölkənin vətəndaşlığını alması xəbəri təsdiqlənmədi, amma bəzi suallar hələ də açıq qalır...

yazısı səh.2-də

*Qubad İbadoğlu:*

### "Bu il istehlakçılar və sahibkarlar üçün ağır olacaq"

yazısı səh.6-da

### İntiqam Əliyevin istintaqı yekunlaşdı

yazısı səh.3-də

### Müsavat parlament seçkiləri ilə bağlı müzakirələrə başlayacaq

yazısı səh.2-də

### Qazax məscidinin imamı ittihamlara cavab verdi

yazısı səh.4-də

### Həsən Şirinov müəmması davam edir...

yazısı səh.5-də

### İsmayıllı hadisələrində adı hallanan Vüqar Ələkbərov sükutu pozdu

yazısı səh.10-da

### Azərbaycan su fəlakəti ilə üz-üzədir

yazısı səh.14-də

### 2015-ci illə bağlı kövrək Qarabağ gözləntiləri

yazısı səh.11-də

### Mədət Quliyev öldürülən məhkumun bacısını qəbul etdi

yazısı səh.12-də

### Bayram tətilləri dövlət büdcəsinə nə qədər ziyan vurur?

yazısı səh.14-də

### Evlərə görə vergi dəyişdi

yazısı səh.2-də

### Əməkdaşımız "Bəxtiyar" filmini yenidən "çəkdi"

yazısı səh.15-də

## Keçmiş şəriklərindən məşhur biznesmenə ağır zərbə

# MƏMMƏDOV KLANI "HAFKA"NI ÖLKƏDƏN DİDƏRGİN SALDI

Anar Məmmədov Fransanın "Lans" klubunu rəsmən Hafiz Məmmədovun əlindən aldı; nəqliyyat nazirinin keçmiş şəriki biznesini Türkiyəyə köçürür və orada şirkət alıb



yazısı səh.5-də

# Xədicə İsmayılın həbsi Amerikanı qarışdırdı

AzadlıqRadiosunun keçmiş rəhbəri Ceffri Qodmin xanım İsmayılın həbsində ABŞ Mərkəzi Kəşfiyyat İdarəsini suçlayıb; Bakıdan reaksiya: "Qodminin bu məqaləsi sensasiyaya xidmət edir"

yazısı səh.8-də



*Fəzail Ağamalı:*

### "Avropa Oyunlarına görə həbslər olacağı əsassız fikirdir"

yazısı səh.6-da



*Arif Hacılı:*

### "Parlament seçkilərində ölkədə status-kvo dəyişəcək"

yazısı səh.4-də



*Siyavuş Novruzov:*

### "Öz yolumuzla davam edəcəyik, istəyir ABŞ-ın xoşuna gəlsin, istəyir gəlməsin"

yazısı səh.9-da

**6 yanvar 2015**

# Prezident pravoslavları təbrik etdi



Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını Milad bayramı münasibətilə təbrik edib.

Təbrikdə deyilir: "Hörmətli həmvətənlər! İsa Peyğəmbərin mübarək mövludu - müqəddəs Milad bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm. Tarixən Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri qarşılıqlı anlaşma və hörmət şəraitində, əmin-amanlıq, dostluq və qardaşlıq mühitində yaşamışlar. Təsadüfi deyil ki, Azərbaycan dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalar və mədəniyyətlərarası dialoq məkanı, zəngin multikultural ənənələrə malik ölkə kimi tanınır. Bu gün milli-tarixi irsin, etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi Azərbaycanda həyata keçirilən dövlət siyasətinin başlıca istiqamətlərindən biridir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, ayrı-ayrı xalqların və dinlərin nümayəndələri, o cümlədən pravoslav etiqadlı həmvətənlərimiz azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək, ərazi bütövlüyümüzün qorunmasında, vətəndaş cəmiyyəti quruculuğunda, respublikamızın inkişafı və tərəqqisi naminə aparılan böyük quruculuq işlərində yaxından və fəal iştirak edirlər. Özündə yeniliyi, həmrəyliyi və əmin-amanlığı təcəssüm etdirən Milad bayramı xristian icması tərəfindən hər il ölkəmizdə yüksək əhval-ruhiyyə və təntənə ilə qeyd olunur. Bu əziz gün münasibətilə bir daha hər birinizə bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram. Bayramınız mübarək olsun!"



# CASCFEN-dən müəllimlər üçün netiket seminarı

**Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi Bakıda ölkənin müxtəlif bölgələrindən gəlmiş 40-dək müəllim üçün seminar təşkil edib. "Onlayn etika - netiket" proqramı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda təşkil edilmiş seminarda "Virtual aləmdə etik normaların gözlənilməsi" mövzusunda müzakirələr aparılıb.**

CASCFEN sədri Azər Həsrət əsas mövzu ətrafında çıxış edərək iştirakçılara virtual müstəvidə davranışın "10 qızıl qaydası" haqqında danışıb. Çıxışçı qeyd edib ki, Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının sürətli bir şəkildə insanların həyatına daxil olması bu müstəvidə davranış qaydalarının da təbliğinə zərurət yaradıb.

"Artıq ölkəmizdə yeni texnologiyalar hər kəs üçün əlçatandır. Heç bir senzura tətbiq edilmir, insanlar istədikləri kimi, azad şəkildə bu texnologiyalardan istifadə edir. İstər ölkə konstitusiyası, istərsə də uyğun qanunlarımız onlayn müstəvidə də ifadə azadlığı üçün ən yüksək təminat verir. Təbii ki, hər bir vətəndaş bu azadlıqdan gen-bol istifadə edir. Amma təəssüflər olsun ki, bəzən bəzi insanlar belə azad mühitdən sui-istifadə edir, başqalarının könlünü bulandıracaq, haqqını tapdayacaq əməllərə yol verirlər. Elə buna görə də biz "Onlayn etika - netiket" proqramının geniş şəkildə, müxtəlif peşə sahibləri arasında tətbiqində maraqlıyıq", - deyə Azər Həsrət bildirib.

CASCFEN sədri onu da qeyd edib ki, təhsil sahəsində İKT-nin sürətli tətbiqində əldə edilməkdə olan uğurlar həm də bu sahənin insanları arasında geniş maarifləndirmə işi aparmağı zəruri edir.

Tədbir iştirakçıları belə seminarların məktəblərdə təşkilində maraqlı olduqlarını bildirib, CASCFEN sədri Azər Həsrət də başçılıq etdiyi qurumun böyük həvəslə buna hazır olduğunu deyib.

Sonda iştirakçılara CASCFEN-in sertifikatı təqdim edilib.

"Onlayn etika - netiket" proqramı artıq 3 ildir ki, CASCFEN-in daxili imkanları hesabına həyata keçirilən fasiləsiz layihədir. Proqram çərçivəsində seminarlar ödənişsizdir.


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Səfər Əbiyevin adı ətrafında "Çexiya müəmması"

## Sabiq müdafiə nazirinin başqa ölkənin vətəndaşlığını alması xəbəri təsdiqlənmədi, amma bəzi suallar hələ də qalır...

**Sabiq müdafiə naziri, general-polkovnik Səfər Əbiyev 2015-ci ili Çexiyada qarşılayıb. Keçmiş nazir bu ölkədə aldığı mülkündə bayramı qeyd edib və vətəndaşlıq məsələsinə də son qoyub. Bu barədə axar.az-a verilən məlumatda iddia olunur ki, keçmiş nazir Çexiya vətəndaşlığı alıb. Onun ikili vətəndaşlığı olduğu - Azərbaycanla bərabər Çexiya vətəndaşlığı da aldığı bildirilir. Amma Azərbaycan qanunvericiliyi ikili vətəndaşlığı qadağan edir.**



Hazırda Çexiyada yaşayan və oranın vətəndaşı olan həmyerlimiz Zamiq Məmmədli isə facebook səhifəsində bu məlumatı paylaşıb və sabiq nazirlə bir ölkənin vətəndaşı olduqlarını qeyd edib.

S.Əbiyevin istefaya göndərildiyi ilk günlərdə ölkəni birdəfəlik tərk etməsi haqda xəbərlər yayılırdı. Ancaq məlumatların heç biri təsdiqlənmədi və S.Əbiyev tərəfindən birmənalı təkzib olundu. Bununla belə, keçmiş nazir Çexiyada olması xəbərini də təkzib etmədi, sadəcə, ölkədən həmişəlik getmədiyini açıqladı.

"Azərbaycanın keçmiş müdafiə naziri Səfər Əbiyevin Çexiya vətəndaşlığı alması ilə bağlı yayılan məlumatlar tam yalandır". Bu barədə "Amerikanın səsi"nə Əbiyevin yaxınlarından biri bildirib. "O, xaricdə müalicə alır və bu günlərdə vətənə dönəcək" deyə, qeyd edib. Çexiyanın Azərbaycandakı səfirliyi də S. Əbiyevin Çexiya vətəndaşı olması ilə bağlı mediada yayılan məlumatları təsdiq etməyib: "Bizdə Səfər Əbiyevin Çexiya vətəndaşlığı alması barədə məlumat yoxdur".

**Səfər Əbiyevin digər ölkənin vətəndaşlığını alması xəbəri onun nazir olduğu dönəmdə ətrafında olan yüksək çinli zabitlərin həbsdən azad edilməsindən dərhal sonra yayılmasını təsadüf hesab etməyənlər də var. Hüquq müdafiəçisi Bəxtiyar Məmmədov "Yeni Müsavat"a bildirib ki, Səfər Əbiyev nazir olduğu dövrdə ona Hərbi Dəniz Qüvvələrinin vitse-admiralı Şahin Sultanovun yol verdiyi korrupsiya haqda məlumat verib:** "Bunun əvəzində özümü şərləyib həbs etdirdilər. Səfər Əbiyev vəzifəsindən çıxarılandan sonra Şahin Sultanovun özü həbs olundu. Mən isə azadlığa çıxdım. İndi isə məhkəmə Şahin Sultanovu, onunla bərabər tutulan Səfər Əbiyevə yaxın zabitləri ev dustaqlığına buraxıb. Belə bir vaxtda Səfər Əbiyevin ölkədən getməsi təsadüfi deyil. Səfər Əbiyev bunu gözləyirmiş kimi ölkədən çıxıb. Mən bu məsələ ilə bağlı araşdırma aparıram".

B.Məmmədov yaxın günlərdə araşdırmalarının nəticəsi haqda ictimaiyyətə məlumat verəcəyini söylədi.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Evlərə görə vergi dəyişdi

**2015-ci ildən etibarən Azərbaycanda əmlak və torpaq vergilərinin dərəcələri və hesablanma qaydaları dəyişdirilib.**

Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, artıq verginin məbləği əmlakın qiymətindən yox, ölçülərindən asılı olacaq.

Yeni qaydalarda yaşayış sahələri üçün ayrıca vergitutma mexanimzləri nəzərdə tutulub. Belə ki, mənzilinin sahəsi 30 kvadratmetrdən aşağı olan əmlak sahibləri əmlak vergisi ödəməyəcəklər. Əmlak vergisi mənzilin 30 kvadratmetrdən artıq olan hissəsinə görə hesablanacaq. Amma verginin məbləği regionlardan asılı olaraq dəyişəcək. Belə ki, 30 kvadratmetrdən artıq hər 1 m2-i üçün vergi Bakıda 40 qəpik, Gəncə, Sumqayıt şəhərlərində, eləcə də Abşeron rayonunda 30 qəpik, digər şəhər və rayon mərkəzlərində 20 qəpik olacaq. Kənd və qəsəbələrdə, o cümlədən kiçik yaşayış məntəqələrində isə evin hər kvadratmetrindən 10 qəpik tutulacaq (30 kvadratmetrdən artıq).

Bakının özündə də vergi fərqli olacaq. Məcəlləyə edilən dəyişikliklər nəticəsində əmlak vergisinin məbləği nəinki əmlakın hansı regionlarda yerləşməsini, hətta paytaxtın mərkəzində və ya kənarında yerləşməsini də nəzərə alacaq. Belə ki, Bakının ayrı-ayrı ərazilərində əmlak vergisinin dərəcəsi fərqli olacaq. Paytaxtdakı əmlakdan vergilərin hesablanması üçün 0,7-dən 1,5-ə qədər dəyişə bilən əlavə əmsal tətbiq edilə bilər. Başqa sözlə, Bakıdakı əmlak sahibləri üçün verginin məbləği hər m2 üçün 28 qəpikdən 60 qəpiyə qədər dəyişəcək. Yeni əmlak vergisinin məbləği indiyə qədər mənzil-istismar idarələrinə ödənilən məbləğ qədər olacaq. Sadəcə gələn ilin əvvəlində verginin ödənilməsi səlahiyyəti daşınmaz əmlakın yerləşdiyi ərazinin yerli özünü idarəetmə orqanlarına (bələdiyyələrə) veriləcək (fins.az).

# Müsavat seçki ilə bağlı partiyalarla müzakirələrə başlayacaq

**Dünən Müsavat Partiyası Divanının iclası keçirilib. Partiyadan verilən xəbərə görə, Divanda qərarların icrası və görülən işlər barədə məlumat verilib. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və yeni təqvim ili münasibətilə partiya rəhbərliyinin iştirakı ilə siyasi məhbuslar Tofiq Yaqublu, Sirac və Fərəc Kərimli qardaşları, həmçinin Yadigar Sadıqovun ailələrinin ziyarət edilməsi haqqında məlumat verilib. Siyasi məhbus ailələrinə diqqətin davamlı olması məqsədəuyğun hesab olunub.**

Yığıncaqda Yeni il ərəfəsində verilən əfv fərmanı ilə azadlığa çıxan insanlara, xüsusilə siyasi məhbuslara təbrik səsləndirilib, bu əfv fərmanının yarımçıq olduğu və problemin həlli olmadığı qeyd edilib.

Məlumatda sonra deyilir ki, Divanda Müsavat Partiyasının 2015-ci il fəaliyyət istiqamətlərində əks olunan parlament seçkilərində iştirak, seçki islahatlarının əsas elementlərinin müəyyənləşdirilməsi, seçki komissiyalarının hakimiyyətin nəzarətindən çıxarılması, seçki günü birgə müşahidənin təşkil olunması istiqamətində siyasi partiyalarla məsləhətləşmələrin aparılması istiqamətində müzakirələrə başlanılıb davam etdirilməsi məqsədəuyğun hesab edilib.

Divanın yığıncağında partiyanın rayon (şəhər) təşkilatlarının fəaliyyətinin gücləndirilməsi istiqamətində görüləcək tədbirlər də müzakirə olunub.

Divan 19 yanvar 2015-ci il tarixində saat 16.00-da Müsavat Partiyasının Mərkəzi Qərargahında 20 Yanvar hadisələrinin 25-ci ildönümü ilə bağlı anım tədbirinin keçirilməsi haqqında qərar qəbul edib.

Sonda cari məsələlərə baxılıb.

❑ **E.SEYİDAĞA**



# Əli İnsanov "Yeni Müsavat"ı təbrik etdi

**"Yeni Müsavat" qəzetinin 25 illik yubileyindən və 6000-ci sayının çapdan çıxmasından müəyyən müddət ötməsinə baxmayaraq təbriklər gəlməkdə davam edir. Hazırda həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanov da "Yeni Müsavat"ı təbrik edib.**

Bu barədə musavat.com-a sabiq nazirin vəkili Toğrul Babayev məlumat verib: "Əli İnsanovla son görüşümdə o, Rauf Arifoğlu başda olmaqla, "Yeni Müsavat" kollektivini 25 illik yubileyləri və qəzetin 6000-ci sayının çapdan çıxması münasibətilə təbrikini çatdırmağımı söylədi. O bildirdi ki, "Yeni Müsavat" mövcud olduğu dönəmdə ölkəmizdə misli görünməmiş müsbət işlər görüb. Haqq-ədalətin qorunmasında əvəzsiz xidmətlər göstərib. Bundan əlavə, Əli müəllim Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İllə bağlı da "Yeni Müsavat" rəhbərliyini və kollektivini təbrik etdi".

Qeyd edək ki, 2005-ci ilin oktyabr ayında həbs olunan Ə.İnsanov dövlət vəsaitlərinin mənimsənilməsində və dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham olunaraq, 2007-ci ilin aprel ayında əmlakı müsadirə olunmaqla və 3 il ərzində dövlət vəzifəsi tutması qadağan olunmaqla, 11 il müddətinə azadlıqdan məhrum olunub.

❑ **Cavanşir ABBASLI**

# General Nizam Osmanov MN-ə idarə rəisi təyin edilib

**Azərbaycan Silahlı Qüvvələrinin Ordu Birliyinin komandiri, general-leytenant Nizam Osmanov vəzifəsindən azad olunub. APA-nın məlumatına görə, onun yerinə general-mayor Hikmət Həsənov təyin edilib.**

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya faktı təsdiqləyiblər. "Silahlı Qüvvələrdə planlı surətdə həyata keçirilən tədbirlər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən, birlik komandiri vəzifəsinə general-mayor Hikmət Həsənov təyin olunub. Əvvəllər həmin vəzifədə çalışmış general-leytenant Nizam Osmanov isə Müdafiə Nazirliyində Baş İdarə rəisi vəzifəsinə təyin olunub", - deyə mətbuat xidmətindən APA-nın sorğusuna cavab olaraq bildirilib.

YENİ MÜSAVAT
N 1 (6029) 6 yanvar 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Uzanıqlı siyasi məhbus şəkli

## Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib

**Bir də baxırsan azdan-çoxdan tanınmış bir müxalifətçi öz partiyasında tutduğu vəzifədən istefa verir. Dalınca da "istefa mədəniyyəti" haqda yerdə qalanlara uzun-uzadı mühazirələr oxuyur. Bəzi naşılar da "bəh-bəh" deyərək, bəyin bu addımını göylərə qaldırırlar. Əslində isə müxalifətçinin tutduğu postdan istefa verməsini uzaqbaşı adi bir addım kimi qiymətləndirmək daha düzgün olardı, nəinki qəhrəmanlıq kimi.**

Qardaşım, iqtidarda olarkən istefa vermək qəhrəmanlıq və mədəniyyət sayılmalıdır. Bir çox hallarda müxalifət partiyasındakı vəzifədən istefa vermək meydandan qaçmağa daha çox bənzəyir, nəinki qəhrəmanlığa. Adam bundan sonra gözdən-könüldən uzaq bir guşəyə çəkilib öz sakit həyatını yaşamağı seçirsə, buraxın onun yaxasını. Aşıq da yaxşı deyib: "İgid odur ki, atdan düşüb atlana..."

İstefa demişkən, mümkün olsaydı mən, eləcə də digər siyasi məhbuslar həbsxanadan istefa verərdik. Azadlığa çıxandan sonra istefa mədəniyyəti haqda mühazirələr oxuyardıq. Məsələ burasındadır ki, həbsxanadan istefa vermək mümkün deyil, bunu ancaq əlahəzrət möhtərəm edə bilir. Yeri gəlmişkən, sonuncu əfv sərəncamına görə iqtidarımıza sonsuz təşəkkürümü bildirirəm. İmkan olsaydı fikirlərimi AzTV-nin kamerası qarşısında deyərdim. Deyərdim ki, DAHG *(Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü)* münasibətilə verilmiş əfv sərəncamı məni çox xoşbəxt edib. Bildiyiniz kimi, "Azadlıq" qəzeti dalbadal sıx düzülmüş çərçivələrdə siyasi məhbusların şəkillərini verir. Axır vaxtlar orada yaman sıxlıq yaranmışdı. Təsəvvür edin ki, sıxlıq ucbatından nəfəs almaq belə olmurdu. Mən də ki, astma xəstəsiyəm. İndi gəlin mənim halıma baxın da. Bir-birimizə elə sıxılmışdıq ki, qollarımız o yana dursun, heç barmaqlarımızı tərpədə bilmirdik. Şəxsən mənim qollarım tamam uyuşmuşdu. Allah insaf vermiş çərçivə qonşum Qurban Məmmədov da bir az cantaraq adamıydı deyə, az qala qabırğalarım sınırdı. Hörmətli iqtidarımız 4 nəfəri siyasi məhbus vəzifəsindən istefaya göndərdi. İndi vəziyyətimiz xeyli yüngülləşib. Qurban Məmmədov yanımdan gedən kimi qollarımın uyuşuğu açıldı. Ürəkdən gərnəşərək sümüklərimi şaqqıldatdım. Çox xoşbəxtəm. Gərək "Azadlıq" qəzetindən xahiş edəm ki, mənim oradakı şəklimi dəyişib yerinə daha xoşbəxt göründüyüm başqa şəklimi qoysun.

Əminəm ki, növbəti DAHG bayramında hörmətli iqtidarımız daha 4 nəfər siyasi məhbusu tutduğu vəzifədən istefaya göndərəcək. Onda lap kef olacaq. O qədər genişlik *(Qərbdə "azadlıq" elə buna deyirlər)* olacaq ki, lap istəyirsən orada futbol oyna. Bununla bağlı planlarım var. Onda "Azadlıq"dan xahiş edəcəm ki, uzanıqlı vəziyyətdə, ayağımı ayağımın üstünə aşırdığım və əllərimi daraqlayaraq başımın arxasında keçirtdiyim bir şəklimi qoysunlar. Qoy dünya görsün ki, həşəmətli iqtidarımız öz vətəndaşları üçün əl-qol açmağa necə ideal şərait yaradıb. Mən qətiyyən narahat deyiləm ki, iqtidar yeni şəkillərlə yerimizi daralda, hətta əvvəlkindən də betər günə sala bilər. Teymur Mustafayev demişkən, qəti qorxusu yoxdur. Çünki tutmağa çöldə daha adam qalmayıb. Bilirəm ki, adam şərləyib tutmaq xasiyyətini tərgitmək siqareti tərgitməkdən qat-qat çətin işdir. Ona görə də iqtidarımız özünü saxlaya bilməyib siyasi məhbus vəzifəsinə təzə təyinatlar etmək istəsə, layiqli kadr tapa bilməyəcək. Bayaq dedim axı, artıq adam qalmayıb. Onda o, məcbur olacaq ki, içəridəkiləri yenidən tutmağa başlasın. Zatən bu prosesə start verilib. Artıq bir sıra vicdan məhbuslarına əlavə ittiham irəli sürülüb. Yazıqlar neyləsinlər, konveyer işləməlidir, ya yox? Ya müxalifətçiləri ikinci dəfə tutmalısan, ya da Xanhüseyn Kazımlı, Zahid Oruc kimiləri tutmağa başlamalısan. Təbii ki, birinci varianta gedilməlidir. Bundan sonra "Azadlıq" da məcbur olacaq ki, bir siyasi məhbusun iki şəklini, özü də yanbayan yerləşdirsin.

Bax, onda şəxsən mənim üçün qiyamət qopacaq. Öz xasiyyətimi bilirəm axı. Qurban Məmmədov qonşuluğumda olanda, yaratdığı problemlərə baxmayaraq, onunla birtəhər yola gedirdim. İndi gəl, Tofiq Yaqublu ilə yola get görüm, necə gedirsən? Yaxşı tanıyıram tərsin biridir. Növbəti DAGH bayramına qədər döz, görüm, necə dözürsən?

# İntiqam Əliyevin istintaqı yekunlaşdı

## Vəkilin ittiham aktı Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib və yaxın günlərdə icraata veriləcək; adı əfv siyahısına düşməyən məhbusların yaxınları nə düşünür?

**Dekabrın 30-da prezident İlham Əliyev əfv sərəncamı ilə "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı, hüquqşünas Qurban Məmmədov, jurnalist Sərdar Əlibəyli, NİDA-çı gənclər Zaur Qurbanlı və Üzeyir Məmmədli kimi tanınmış məhbuslar azadlığa çıxdı.**



Siyasi motivlərə görə məhbəs həyatı yaşayan əksər məhbuslar həbsdə qaldılar. Bunlara nümunə olaraq Müsavat başqanının müavini Tofiq Yaqublu, REAL sədri İlqar Məmmədov, jurnalist Pərviz Həşimli, MDP sədri Nemət Pənahlı və NİDA-çı gəncləri misal göstərmək olar.

Doğrudur, bəzi tanınmış siyasi məhbusların ümumiyyətlə əfvə düşmə şansları yox idi. Çünki onlar ya istintaq, ya da məhkəmə dövrlərini yaşayırlar.

Əfvə düşməyən siyasi məhbuslardan ən çox maraq doğuran REAL hərəkatının sədri İlqar Məmmədov oldu. Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) oktyabrdakı qərarında REAL sədrinin azadlıq hüququnun və təqsirsizlik prezumpsiyasının pozulduğu tanınmış, onun dərhal azadlığa buraxılması və əvəzində ona dəymiş mənəvi ziyana görə 22 min avro təzminat ödənilməsi tələb olunmuşdu. Lakin göründüyü kimi, bu qərar da İlqar Məmmədovun azadlığa çıxmasına kömək etmədi.

Qeyd edək ki, analoji qərar hazırda həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovla bağlı da verilmişdi. Lakin sabiq nazir yenidən mühakimə olundu və barəsində çıxarılan hökm qüvvədə saxlanıldı. Buna bənzər hadisə İlqar Məmmədovla bağlı yaşanmaqdadır. REAL sədrinin dekabrın 30-da verilən əfvə düşməməsi, AİHM-in onun haqqında oktyabr ayında çıxardığı qərar yeni məhkəmənin keçiriləcəyini deməyə əsas verir.

**Vəkili Fuad Ağayev dedi ki, yanvarın 12-də hüquqlarını müdafiə etdiyi İlqar Məmmədovla bağlı Şəki Apelyasiya Məhkəməsinin çıxardığı qərardan kasasiya şikayətinə baxılacaq:** "Bu şikayətə baxılması öz-özlüyündə yeni prosesdir. Bu nə deməkdir? Məhkəmə aktlarına yenidən baxılıb, ya dəyişdirilməli, ya da ləğv olunmalıdır. Biz bu şikayətdə həmin aktların ləğvini tələ edirik".

**REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova əvvəlcədən əfv sərəncamına ümid etmədiklərini qeyd etdi:** "Sərəncamdan sonra İlqarla danışmışam. Əhval-ruhiyyəsi əladır. Onsuz da əfvə düşəcəyinə inanmırdı. Avropa Məhkəməsinin qərarı var. Əsas o yerinə yetirilməlidir. Hər bir işin sonu olduğu kimi, bunun da bir sonu olacaq".

**Tofiq Yaqublunun qızı Nigar Yaqublu yanvarın 4-də atası ilə görüşüb. Görüş barədə o, bunları dedi:** "Atamın səhhəti normaldır. Saxlanma şəraitindən şikayəti yoxdur. Əli İnsanov, Əbdül Əbilov, Anar Məmmədli və atam eyni cəzaçəkmə müəssisəsindədirlər. Bir-biri ilə rahat görüşürlər. Günləri darıxdırıcı keçmir. Əfv sərəncamına ailə olaraq biz ümid edirdik. Amma olmadı. Xəyal qırıqlığına uğramadıq. Onsuz da nə vaxtsa həbsdən azadlığa buraxacaqlar. Penitensiar Xidmətə Yeni ildə atamla görüşlə bağlı məktub yazmışdım. Yanvarın 2-də cavab gəldi ki, hələ baxılmayıb. İndinin özündə də hələ bir cavab yoxdur".



**NİDA-çı gənc Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova:** "Əfvdən əvvəl Rəşadət azad olunmayacağını bizə demişdi. Ona görə də çox gözləntimiz yox idi. Əfvdən sonra özü ilə görüşmüşük. Hər şey qaydasındadır".

**Digər NİDA-çı gənc Ömər Məmmədovun atası Əlyar Məmmədov oğlunun adının əfv sərəncamına düşməməsi barədə bəhanələrdən danışdı:** "Bizə deyirlər ki, guya sənədləri vaxtında çatmayıb. Amma mən burada başqa bir səbəb görürəm. Onu daha çox saxlayıb həyəcan keçirməsini istəyirlər. Oktyabr və dekabrda əfvə düşməli idi. Əfvdən sonra görüşümüz olub. Özü əfvə ümid edirdi. Amma alınmadı. Gələn əfvi gözləyirik. Başqa bir çarəmiz də yoxdur. Saxlanma şəraitindən şikayəti yoxdur. Sadəcə, qaldığı yer çox darısqaldır. Havasızlıqdan əziyyət çəkir".

Nemət Pənahlının həyat yoldaşı Həcər Pənahlı əfvə ümid edə-edə artıq cəza müddətinin çox hissəsinin keçdiyini söylədi: "Artıq Nemətin həbsinin 4 ili tamam oldu. Çox ümidlərlə yaşamışıq. Hər əfv qabağı Nemətin azad olunacağını deyib ailəmizə və uşaqlara stress yaşadılır. Uşaqların gözü yollara dikilir. Artıq buna öyrəşmişik. Əfvdən sonra özü ilə danışdım. Artıq o da hər şeylə razılaşıb. Heç nəyə ümid etmir".

**Gənc blogger Əbdül Əbilovun anası Nurcahan Əbilova artıq bu cür söz-söhbətlərdən bezdiyini bildirdi:** "Bu dəfə azad olunmalı idi. Amma rəhmə gəlmədilər. Artıq bu cür söhbətlərdən bezmişəm. Azərbaycanda hər şeydən əlim üzülüb. Xarici təşkilatlara müraciətlər ünvanlayıram. Əbdülə deyiblər ki, yenidən əfv ərizəsi yaz".

Həbsdə olan hüquq müdafiəçisi İntiqam Əliyevin işi ilə bağlı materiallar isə artıq məhkəməyə göndərilib.

Vəkil Fəxrəddin Mehdiyevin APA-ya verdiyi məlumata görə, artıq iş üzrə ibtidai istintaq yekunlaşıb, ittiham aktı Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib və yaxın günlərdə icraata veriləcək.

İntiqam Əliyev vergidən yayınma, vəzifə səlahiyyətlərindən sui-istifadə, qanunsuz sahibkarlıq və mənimsəmə maddələri ilə ittiham olunur.

O, ittihamları rədd edir, həbsinin fəaliyyəti ilə bağlı olduğunu deyir.

❑ **Cavanşir ABBASLI**



# Rəsul Cəfərovun işi üzrə istintaq materialları məhkəməyə göndərilib

**Həbsdə olan hüquq müdafiəçisi Rəsul Cəfərovun işi üzrə istintaq materialları baxılmaq üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Bizimyol.info saytının məlumatına görə, iş yaxın günlərdə icraata götürüləcək. Rəsul Cəfərov 2014-cü il avqustun 2-də saxlanıb. O, qanunsuz sahibkarlıq, vergidən yayınma və vəzifə səlahiyyətlərini aşmaqda ittiham olunurdu. İstintaq dövründə isə ona qarşı vəzifə saxtakarlığı və külli miqdarda mənimsəmə maddələri ilə yeni ittihamlar irəli sürülüb. Bu ittihamlara görə hüquq müdafiəçisi 12 ilədək azadlıqdan məhrum edilə bilər. Müdafiə tərəfi, bir sıra yerli və beynəlxalq təşkilatlar ona qarşı ittihamların siyasi motivli olduğunu deyirlər.**

YENİ MÜSAVAT
N 1 (6025) 6 yanvar 2015



# Bu, qəliz, qəliz dünya...

Hüseynbala SƏLİMOV

Təkcə biz bayramları yola salmadıq, bayramlar da bizi yola saldı, növbəti ilə, növbəti məchulluğa doğru. Bizə çox vaxt elə gəlir ki, hər şey sadədir, kifayətdir ki, bir-iki adamı "neytrallaşdırasan", bundan sonra nəinki 21 il, hətta 210 il də hakimiyyətdə olmaq olar...

Amma dünya qəlizdir. Özü də bu, təkcə Azərbaycana aid deyil, bütün dünyaya aiddir. Təsəvvür edin, Avropa, Qərb dünyası böyük problemlə üz-üzə qalıb, gündən-günə Suriyaya, İraqa gedib orada İŞİD-in sıralarına qatılanların sayı artır. Bu adamlar orada döyüşür və Əl-Bağdadinin həqiqətən də "Allahın elçisi" olduğuna inanırlar...

Bu adamlar oradan öz ölkələrinə də qayıdırlar. Yerli polislər də baş sındırır ki, bəs bu insanlarla nə edək? Onlar bir deyil, iki deyil, yüzlərlədir...

Görən, bunun səbəbi nədir? Bəlkə Avropada insanlar bir ideya aclığı hiss edirlər? Bəlkə bu yola onları baxdıqları filmlər, macəra axtarışları, adrenalin həvəsi təhrik edir?..

Demək çətindir. Ən əsası odur ki, Avropada bunu başa düşmək, anlamaq cəhdi var. Onlar motivləri anlamağa cəhd edirlər. Ona görə də İŞİD kimi olay və proseslərə sırf müsəlman prizmasından baxmaq lazım deyil. Məsələ düşünüldüyündən daha qəlizdir.

Tədqiqatlar göstərir ki, varlı, əhalinin rifahı ən yüksək olan ölkələr intiharların sayına görə öndədirlər. Məgər biz bunun səbəblərini bilirikmi? Əslində bilmirik və hər şey bizə "sünnət etmək kimi sadə" görünsə də, əslində insan və onun davranışı olduqca mürəkkəbdir...

Bizim hər birimiz Danimarkada yaşamaq istərdik. Amma Danimarkadan onlarla insan qacıb İŞİD sıralarına qatılır! Nə demək olsun bu? Heç kim bilmir və bizdən fərqli olaraq bilməyə çalışırlar...

Əslində Çe Qevara da bir vaxt Avropada gənclərin kumiri idi. Biz bunun səbəblərini bilirdikmi? Bilmirdik. İndi əl-Bağdadidə avropalı gəncləri nə cəlb edir, bunu da bilmirik...

Mən bunları niyə yazıram? Dünya çox qəlizdir, olduqca qəliz. Bu illər ərzində biz cəmi bir meyar öyrənmişik- o da geopolitikadır. Amma geopolitika hər şeyi əhatə edirmi, bütün suallara cavab verirmi? Güman etmirik. Dünya boğazlardan, körfəzlərdən, hərbi-siyasi bloklardan daha qəlizdir. Həmişə elə bir şey tapılır ki, onu geopolitika ilə izah etmək olmur...

Hamı bu hadisələrlə bağlı öz "izah"ını verməyə çalışır. Bu "izah"lardan birini lap elə bu günlərdə eşitdim. Bir nəfər dedi ki, ikinci dünya müharibəsinin ən böyük faciələrindən birini- Xatın faciəsini sovetlərin özü törətmişdi. Onlar bunu on görə etmişdilər ki, əhalidə almanlara nifrət artsın...

Bəli, bu həmsöhbətim belə zənn edir ki, avropalılar, qərblilər islamçı qruplara qoşulur, onları super-radikal hala gətirirlər ki, dünyada islama nifrət artsın... O tərəflərdə baş verənlərin hamısı onsuz da müsəlmanların adına yazılır, hamı, o cümələdən də, elə müsəlmanların özü belə hesab edir ki, bütün bunları radikal dini qruplar edir...

Nə demək olar? Yada salsaq ki, dünyadakı bütün siyasi prosesləri konspirologiya ilə izah etmək ən geniş yayılmış metoddur, onda bu "izah"ın da "yaşamağa" haqqı var...

Amma güman etmirik ki, hər şey belə sadədir. Burada çox şey var. Əvvəldə xatırladığımız ideya aclığı da, macəra axtarışı da, insanın ilkin bioloji instinktləri də-bəli, elə insanlar var ki, onlar öldürmək, dağıtmaq üçün yaranıb və belə adamlar dünyada hətta "müharibə köpəkləri" adını alıblar...

Üstəlik, rusların bir yaxşı məsəli də var. Mən onu tez-tez yada salıram. Bəli, deyir ki, insan təkcə çörəklə tox olmur. Bizim hakimiyyətin problemi ondadır ki, bunlar zənn edir ki, insanlar bir parça çörəklə xoşbəxt olurlar, halbuki hətta onu da zülmlə verirlər...

Biz azərbaycanlılar hamımız çörəklə imtahana çəkilənlərik. Bizi idarə edənlər zənn edir ki, başımız bir parça çörək qazanmağa qarışsa, daha başqa bir şeylər haqda düşünməyəcəyik...

Bəli, onların bu "nəzəriyyəsi" 21 ildir ki, özünü doğruldur. Amma 21 il bir insan həyatı baxımından çoxdur, əslində isə elə də böyük ədəd deyil... Çox da arxayınlaşmaq lazım deyil, hər bir insanın qəlbi böyük bir okeandır - bu okeanda nələr dolaşır, nələr var, bunları çətin ki, kimsə fərz edə bilsin...

# Müxalifət seçki ili planlarını açıqladı

**2015**

**-ci il Azərbaycan üçün bir sıra mühüm hadisələrlə zəngin il olacaq. Təbii ki, ən mühüm və diqqət mərkəzində olacaq hadisə parlament seçkiləridir. Payızda keçiriləcək parlament seçkilərinin ilboyu ölkənin siyasi həyatına qaynarlıq gətirəcəyi proqnozlaşdırılır. Azərbaycanda parlament seçkiləri adətən digər seçkilərdən daha aktiv proseslərlə müşahidə olunur. Bu baxımdan, yenicə başlanan ilin siyasi baxımdan aktiv olacağı proqnozları verilir. Ölkənin bir neçə tanınmış müxalifət partiyalarının rəhbərləri də məhz belə proqnozlar veriblər.**



**Arif Hacılı:** "Parlament seçkilərində ölkədə status-kvo dəyişəcək və demokratik qüvvələrin proseslərə təsir imkanları artacaq"



**Sərdar Cəlaloğlu:** "Builki parlament seçkiləri əvvəlkilərdən fərqlənəcək"

Müsavat Partiyasının başqanı Arif Hacılı "Yeni Müsavat"a bildirdi ki, 2015-ci il ölkəmiz üçün mühüm bir il olacaq: "Hesab edirəm ki, yaxın zamanlarda ölkədə siyasi fəallıq artacaq. Müsavat Partiyası olaraq biz qüvvələrimizi səfərbər etmək, partiya strukturlarını gücləndirmək və parlament seçkiləri ilində vəziyyətin dəyişməsi uğrunda real mübarizə aparmaq niyyətindəyik. Parlament seçkiləri təbii ki, ötən bələdiyyə seçkilərindən fərqlənəcək. Çünki parlament seçkiləri daha çox əhəmiyyət kəsb edir. Parlament seçkilərinə həm yerli siyasi qüvvələr, həm beynəlxalq birlik xüsusi diqqət yetirir. Eyni zamanda parlament seçkilərində beynəlxalq müşahidə təşkil olunur. 125 seçki dairəsi üzrə irəli sürülən namizədlər siyasi fəallığın artmasında mühüm rol oynayır. Biz bu il ərzində müəyyən islahatların keçirilməsi, o cümlədən proporsional seçki sisteminin bərpası, seçki komissiyalarının formalaşması və təşkili istiqamətində fəaliyyət göstərmək niyyətindəyik. Bu məqsədlə Azərbaycanda fəaliyyət göstərən siyasi qüvvələri, ictimai birlikləri bir araya gətirmək və səfərbər etməyə çalışacağıq. Hesab edirəm ki, parlament seçkiləri zamanı ölkədə status-kvo dəyişəcək və demokratik qüvvələrin proseslərə təsir imkanları artacaq".

ADP sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a bildirdi ki, yanvarın 5-də partiyanın İdarə Heyətinin yeni ildə ilk iclası olub. İclasın gündəliyində 2015-ci il üçün partiyanın cari vəzifələri müzakirə olunub. Əsas müzakirə olunan məsələ parlament seçkilərində ADP-nin iştirakı məsələsi olub. ADP-nin seçkidə hansı şəkildə iştirak etməsi kimi məsələlər müzakirə edilib.

**S.Cəlaloğlu qeyd etdi ki, parlament seçkiləri ili əvvəlki illərdən fərqlənəcək:** "Ümumi şəkildə, dünyada gedən hadisələr, Azərbaycan iqtidarının davranışları, cəmiyyətin sosial təhlili göstərir ki, Azərbaycanda proseslər keçən illərdəki kimi davam edə bilməz. İstər beynəlxalq konyuktura, istər ölkə daxilindəki vəziyyət, Rusiyadakı iqtisadi böhranın ölkəmizə təsiri və digər məsələləri üst-üstə gələndə belə proqnoz vermək olar ki, builki parlament seçkiləri əvvəlkilərdən nə iləsə fərqlənəcək. Bu fərqliliyin nə qədər olacağı müxalifətin və iqtidarın davranışlarından asılı olacaq. Əgər iqtidar və müxalifət düzgün davranışlar nümayiş etdirə bilsə, bu fərqliliklər ölkədə yeni bir siyasi situasiyanın meydana çıxması ilə nəticələnə bilər. Əgər əvvəlki illərdəki kimi tərəflər arasında düşmənçilik davam etdirilsə, təbii ki, ölkənin xeyrinə olan heç bir dəyişiklik müşahidə olunmayacaq. Müşahidə olunan dəyişiklik ancaq mənfi istiqamətə olacaq. İqtidarla müxalifətin davranışlarında ciddi dəyişilmələr olmalıdır ki, situasiya dəyişilsin. Ona görə də birinci növbədə biz özümüzü dəyişdirməliyik ki, qarşıdan gələn parlament seçkilərində də vəziyyət dəyişilsin".

**AXCP və Milli Şura da seçkilərdə iştirak etməyə meyllidir. Bunu AXCP sədri Əli Kərimli 2015-ci ildən gözləntiləri ilə bağlı AzadlıqRadiosuna açıqlamasında bildirib. O, təmsil etdiyi partiyanın və Milli Şuranın bu il üçün prioritet saydığı problemləri, planlaşdırdıqları və həyata keçməsini arzuladıqları addımları açıqlayıb:** "2015-ci il parlament seçkiləri ili olduğu üçün daha çox seçki islahatları məsələsi gündəmə gələcək. Partiyamız seçki islahatları paketini təqdim edib onu müdafiə edəcək. Parlament seçkisində iştirakla bağlı qərar üçün vaxt var. Hələ ki, bütövlükdə Xalq Cəbhəsində Milli Şurada parlament seçkisində iştirak etmək meyli güclüdür. Amma vaxt baxımından seçkiyə bir az yaxınlaşanda, heç olmasa, orada iştirakın elementar imkanlarını gördükdə qəti qərarımızı verəcəyik".

❑ **Etibar SEYİDAĞA**

# "Haqqımda səsləndirilənlər iftiradır"

## Qazax məscidinin imamı: "Məqsədim məsciddə tolerantlığı qorumaqdır"






**Musavat.com-da yayımlanan "Qazax məscidində Vəhhabi-Nəqşibəndi qarşıdurması", "Qazax məscidinin imamı vəhhabilərlə xaş yeməyə gedir" başlıqlı iki yazıda "münafiq"likdə və "vəhhabilərlə xaş yemək"də ittiham olunan Qazax rayon Cümə məscidinin imamı İlham Süleymanovla telefon əlaqəsi yaratdıq. Yazdığımız yazıdan sarı narahat olduğunu, məsciddə ayrı-seçkilik yaradan kəslərin əsaslı arqument gətirmədən, keçmiş imamı yerinə bərpa etmək üçün onu qaraladıqlarını bildirdi.**

O, məsciddəki parçalanmanın şəxsiylə bağlı bir məsələ olmadığını, qarşı tərəfin qərəzli mövqe sərgilədiyini söylədi: "O yazılanlarda deyilənlərin hamısı əsassız şeylərdir. Qazağın məscidində baş verənlər mövqe davasından başqa şey deyil. Parçalanmanın əsas səbəbi köhnə imamın təzədən geri qaytarılmasıdır ki, adını başqa-başqa şeylər qoyublar. Burada özgə bir şey yoxdur. Onlar özləri də bilmədən təsir altına düşən insanlardır. Bir neçə dəfə söhbət aparmışam. Soruşduğum zaman bir söz demirlər. Əksəriyyəti gəlib Cümə namazını məsciddə qılır. Narahatlıq yoxdur. Yenə deyirəm ki, buradakı dava məscidə sahiblənmək uğrundadır".

**İlham Süleymanov müxbirimizin "Sizə "münafiq" deyirlər, hətta belə iddia edirlər ki, vəhhabilərlə əlaqələriniz o qədər yaxşıdır ki, onlarla birlikdə xaş yeməyə gedirsiniz. Bu məsələyə münasibətiniz nədir", - sualına cavab verdi ki, səsləndirilənlərin hamısı gülüş doğurur və iftiradan özgə bir şey deyil:** "Əstəğfürüllah! Onlar mənə atılan iftiradır. Sadəcə, o ittihamları səsləndirən adam, kim mənim arxamda namaza durursa, hamısına "vəhhabi" damğası vurur, böhtan atır. Bu məscid Azərbaycan dövlətinindir və burada da Azərbaycanın qanunları işləyir. Onlar istəyirlər ki, məscid başqa dövlətin təsiri altında olsun. Nə mən, nə müavinim Zaur Budaqov buna razı olmayacağıq. Biz bu dövlətin, dini komitənin və Şeyxin istəyi nədirsə, onu qoruyacağıq. Ancaq bəzi insanlar var ki, dediyim kimi, burada adını çəkmək istəmədiyim dövlətin təsirini saxlamaq istəyirlər".

**Sonda o qeyd edib ki, məqsədi məsciddəki tolerantlığı qorumaqdır:** "Mənim məqsədim burada Azərbaycanın tolerantlığını qorumaqdır. Dövlətin də, Şeyxin də, komitənin də istəyi nədirsə, onu qorumağa çalışıram. Yenə deyirəm, burada heç vaxt başqa dövlətin təsiri, təbliğatı olmayacaq".

❑ **Hikmət Carçılı Orhun, musavat.com**

YENİ MÜSAVAT
N 1 (6029) 6 yanvar 2015

# Keçmiş şəriklərindən məşhur biznesmenə ağır zərbə

**Nəqliyyat naziri Ziya Məmmədov, keçmiş şəriki "Bağlan Group"un rəhbəri Hafiz Məmmədovun ("Hafka") sahibi olduğu Fransanın "Lans" klubunu rəsmən onun əlindən alıb. Fransa mətbuatı yazır ki, yanvarın 1-dən klubun auksionerində dəyişiklik baş verib. Klubun əldən çıxmasına səbəb "Hafka"nın "Lans"a olan borcudur. Belə ki, H.Məmmədovun ötən il 20 milyon avroya aldığı "Lans" klubuna əlavə maliyyə söz versə də, bunu edə bilməmişdi.**



# Məmmədov klanı "Hafka"nı ölkədən didərgin saldı

## Anar Məmmədov Fransanın "Lans" klubunu rəsmən Hafiz Məmmədovun əlindən aldı; nəqliyyat nazirinin keçmiş şəriki biznesini Türkiyəyə köçürür və orada şirkət alıb

Borc məsələsinə görə Fransada hətta "Hafka" əleyhinə flaşmoblar da təşkil olunub, "Lans"ın prezidenti Jerve Martel isə bir neçə dəfə Bakıda olmuşdu. Ən son səfərində klub prezidenti anlaşma olduğunu və H.Məmmədovun lazım olan məbləği ödəyəcəyini açıqlamışdı. Amma dekabrın 17-də məlum olmuşdu ki, H.Məmmədovun klubun transfer büdcəsini doldurmaq üçün ödəməli olduğu 2.5 milyon avronu onun əvəzindən bir investor ödəyib. Fransa mediası öyrənmişdi ki, borcu ödəyən nazir Ziya Məmmədovun oğlu, "Garant Holding"in prezidenti Anar Məmmədovdur. Fransanın peşəkar klubların büdcələrinə nəzarət üzrə komissiyası DSNJ-yə təqdim edilmiş müqavilədə göstərilirdi ki, dekabrın 31-nə qədər H.Məmmədov həmin 2.5 milyon avronu qaytara bilməsə, "Lans"ın səhmlərinin üçdə ikisini Anar Məmmədova verməli olacaq. "Lans"ın prezidenti Jerve Martel də H.Məmmədovun əvəzindən 2.5 milyon avronu klubun büdcəsinə köçürən investorun Anar Məmmədov olduğunu təsdiq etmişdi.

H.Məmmədov klubun onun əlindən bu cür alınması ilə razı olmamış və həmin müqaviləyə imza atmaqdan imtina etmişdi. O, dekabrın 21-də bəyanat yayaraq "Lans"ın büdcəsinə 2.5 milyon avro vəsaitin köçürülməsinə dair heç bir razılaşma olmadığını bəyan edərək hətta Məmmədovlar klanını hədələmişdi də. **"Təəssüf ki, ayrı-ayrı adamlar bizim üzləşdiyimiz çətinliklərdən öz şəxsi maraqları üçün istifadə etməyə çalışır və mən hər iki ölkə ictimaiyyətini əmin etmək istəyirəm ki, onlar buna görə öz cəzalarını alacaqlar"** - deyə, Hafiz Məmmədovun rəsmi bəyanatında bildirilirdi.

Amma yayılan xəbərlər "Hafka"nın Məmmədovlar klanı ilə savaşda uduzduğunu göstərir. Belə ki, H.Məmmədov biznesini Azərbaycandan Türkiyəyə köçürür. O, hətta bu ölkədə avtomobil yük daşımaları ilə məşğul olacaq şirkəti qeydiyyata aldırıb. Qeyd edək ki, "Hafka"nın Z.Məmmədovla Azərbaycanda neft və qeyri-neft yükləri, sərnişin daşıyan bir neçə şərikli şirkəti vardı. Amma şəriklər arasında nifaq başladıqdan sonra H.Məmmədovun oğluna məxsus olan "Bank of Azerbaijan"ı, eləcə də "Bağlan Group"u nazirin ailəsinə məxsus "Garant Holdinq"ə aid binadan çıxardılar. Məmmədovlar klanı "Baglan Group"un nəzarətində olan şirkətləri də onun əlindən almaq üçün çoxdandır ki, çalışır. O da faktdır ki, Məmmədovlar neft daşımaçılığı sahəsində inhisarçıdırlar və onlarla ayrıldıqdan sonra "Hafka" təkbaşına heç nə edə bilməzdi.

"Turan"ın xəbərinə görə, İstanbul Ticarət Palatasının Ticari Palatalakli və Birjalar Birliyində 24 dekabr 2014-cü ildə "Azlog Group İthalat İhracat Limited"(qeydiyyat nömrəsi № 953077/0) qeydiyyata alınıb. Şirkət Hafiz Məmmədova məxsusdur. İlkin üzvlük haqqı 10 min türk lirəsidir. Əsas idarəçi də məhz H. Məmmədov özüdür.

❑ Xəbər xidməti

# Həsən Şirinov müəmması davam edir...

## General-mayorun prezident kortejindən qovulması haqda növbəti xəbər yayılıb



Həsən Şirinov

**Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Həsən Şirinov prezidenti müşayiət etmək hüququndan yenə də məhrum olunub. Bu haqda virtualaz.org saytı növbəti dəfə xəbər yayıb. Məlumata görə, H.Şirinov şəhərdə yaranmış tıxacda yenə özünü itirib. Nəticədə prezident İ.Əliyevin korteji yenə tıxacda qalıb. Sayt yazır ki, dekabrın 26-da plana görə prezidentin korteji metronun "Koroğlu" stansiyasının yaxınlığından hərəkətin məhdudlaşdırıldığı küçələrdən keçməli imiş. Lakin H.Şirinovun səhvi ucbatından karvan başqa küçəyə burulub. Bu isə kortejin uzun tıxacın yaşandığı küçəyə dönməsi ilə nəticələnib.**

Xəbərdə əvvəlki insidentə diqqət yetirilir: "Çox maraqlıdır ki, Həsən Şirinov prezidentin kortejinin tıxaca düşməsi ilə bağlı artıq ikinci dəfədir öz vəzifəsini itirir. Əvvəlki insident prezident İ.Əliyev Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadzenin vəfatı ilə bağlı başsağlığı vermək üçün Gürcüstanın Bakıdakı səfirliyinə gedərkən baş vermişdi. Qaydaya görə, prezidentin kortejini Bakı Şəhər Baş Dövlət Yol Polisi İdarəsi rəisinin müavini, general-mayor Həsən Şirinov müşayiət edir. H.Şirinovun sürücüsü yolu səhv salaraq "Gənclik" tərəfə aparan tunelə girib. Sonradan bəlli olub ki, buna general H.Şirinovun sürücüsünün günahı səbəb olub. Prezidentin korteji tıxacdan çıxandan sonra generalın maşını əlindən alınıb. Sonra isə sürücü polis orqanlarından qovulub".

Moderator.az saytı isə Həsən Şirinovun işdən qovulmasının başqa səbəblə əlaqəli olduğunu yazıb.

**Milli Qvardiyanın keçmiş zabiti, polkovnik Əzizağa Süleymanov sayta deyib ki, bu cür iddia irəli sürənlər prezidentin kortejinin yola salınıb qarşılanmasına cavabdeh olan qurumların və şəxslərin kimliyini bilməyənlərdir:** "Bu bir hərbi sirr olduğu üçün detallarını tam açıqlaya bilmərəm. Mühafizə Xidmətinin rəisinin əlində ən azı 3 variantda marşrut istiqaməti var. Məhz o, bütün istiqamətdə hərəkəti tənzimləyir. Bütün ehtimallara və gözlənilməz situasiyalara da o cavabdehdir, onun xidmətində isə kəşfiyyat və əks kəşfiyyat var. Polis hərəkət marşrutundan qabaqcadan xəbərdar olmur. Ya Həsən Şirinov olsun, ya da ki, qeyrisi, bütün hərəkət marşrutuna cavabdeh xidmət rəisidir. Yalnız o deməlidir ki, kortej sağ və ya sola istiqamətlənsin. Bu, birmənalı olaraq təhlükəsizlik baxımından qanundur. Ona görə də hesab etmirəm ki, Həsən Şirinovu buna görə vəzifədən kənarlaşdırıblar. Ola bilsin başqa səbəblər olub".

**Baş Dövlət Yol Polisi İdarəsindən "Yeni Müsavat"a bildiriblər ki, H.Şirinovla bağlı yayılan xəbərlərlə tanışdırlar. Həmin xəbərlərin dəqiq və ya qeyri-dəqiq olması haqda isə məlumatsızdırlar. Bakı Şəhər Baş Polis İdarəsindən isə hər hansı bir şərh vermək istəməyiblər.**

❑ E.MƏMMƏDƏLİYEV

# Daş atmaq haqqı



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**"91-lər"dən olan, 1990-cı ildən üzü bəri Azərbaycan parlamentinin daimi "sakini" Arif Rəhimzadənin bir fikrini çox bəyəndim. Yeni il ərəfəsi qəzetimizə verdiyi müsahibəsində İsa peyğəmbərsayağı demişdi ki, "Kimisə tənqid eləməkdən ötrü (ona daş atmaqdan ötrü - Z.S.) gərək hökmən həmin sahədə tənqid etdiyin adamdan üstün olasan..."**

Dərhal qeyd edək ki, YAP-çı deputat bunu son vaxtlar ABŞ-ın Azərbaycan hakimiyyətini insan haqlarına görə qınamasının haqsız və ədalətsiz olmasını isbatlamaq üçün söyləmişdi. Yəni sözündən belə çıxırdı ki, bizim iqtidara (coğrafi anlamda) cürət edib heç kim irad tuta bilməz.

Gerçəkdən də, məntiqlə əgər dünyanın ən demokratik, eyni zamanda ən qüdrətli dövləti bunu edə bilməzsə, aydın məsələdir ki, yerdə qalanlar heç edə bilməz - o cümlədən Avropanın aparıcı dövlətləri və mötəbər strukturları...

Şübhəsiz, Arif Rəhimzadənin təbirincə desək, "öz gözündə tiri görməyən" Amerikanın da qüsurları var. Amma axı, Allah eşqinə, onları əvvələ, Azərbaycandakı nöqsanlarla eyni tərəziyə qoymaq günahdır. Bəyəm ABŞ-da siyasi məhbus var? Ya bəlkə orda televiziyalar yalnız prezident Barak Obamanın mənsub olduğu Demokratlar Partiyasının təbliğatını aparır? Hələ hamının bildiyi başqa "özəllikləri" yazmırıq.

Amerikada hər 4, uzaqbaşı 8 ildən bir prezident dəyişir, Azərbaycanda isə 21 ildə heç normal bələdiyyə seçkiləri də keçirilməyib. Amerikada seçkiləri ATƏT daxil, heç bir nüfuzlu beynəlxalq qurum izləmir, çünki lüzum görmür, seçkilərin dürüstlüyünə inanırlar; buna əmindirlər sadəcə. Bizdə isə hətta yüzlərlə beynəlxalq müşahidəçinin gözü qarşısında seçkilərə hiylə, haram qatılır. ABŞ-ın bizə tənqid deməyə indi haqqı niyə çatmasın ki?

Doğru, Amerikanın demokratiyası, daxili siyasi sistemi nə qədər mükəmməl olsa da, qüsursuz deyil. Ancaq önəmlisi odur ki, bizdəki hakim qüvvədən fərqli olaraq, rəsmi Vaşinqton qüsurları əsla danmır, əksinə, etiraf edir və başlıcası, düzəltməyə çalışır.

Düzəldir də. Zira, sağlam tənqidin və plüralistik cəmiyyətin varlığının istənilən ölkənin tərəqqisi və qüdrətlənməsi üçün həlledici şərt olduğunu amerikanlar əla bilir. Artıq aksiomdur ki, ABŞ tərifin, məddahlığın deyil, məhz tənqidi mühitin hesabına dünyanın 1 nömrəli dövlətinə çevrilib.

O da tam doğru ki, Dağlıq Qarabağ məsələsində Amerika arzuladığımız mövqeni tutmur, "nala-mıxa" vurur. Ancaq Vaşinqtonun konfliktə daha ədalətli yanaşma sərgiləməsi üçün ona balaca bir ölkə kimi Azərbaycanın savaş açması da kökündən yanlışdır. Amerikanı bununla öz tərəfimizə çəkmək, "yola gətirmək", qorxutmaq mümkün deyil axı. Biz bu fövqəlgücə qarşı tələb yox, təkliflə çıxış edə bilərik - o da təklifimizin keçərli olacağına tam əmin olduğumuzda. Yoxsa ki, səhvi səhvlə düzəltməzlər.

Əgər Azərbaycan müəyyən, olsun ki, lap obyektiv səbəblərdən ABŞ-ın dost-müttəfiqi ola bilmirsə, supergücün rəqib-düşməninə də çevrilməməlidir. Ən birinci də elə öz milli maraqlarımız naminə, Qarabağ naminə...

Əksər təhlilçilərə görə, Azərbaycanın yerləşdiyi regionda, onun ətrafında ötən ildən başlamış böhranlı və ziddiyyətli proseslər bu il kulminasiya nöqtəsinə çatacaq. Söhbət öncəliklə Rusiya-ABŞ qarşıdurmasının nə ilə bitəcəyinə xeyli dərəcədə aydınlıq gəlməsindən gedir.

Elə təkcə bu amil "dinozavrların" qarşıdurmasında rəsmi Bakının tərəf olmamasını, Amerikaya münasibətdə onun ən azından neytral qalmasını və hakimiyyətdəki odioz "rusbaşlar"ın təzyiqlərindən yayınıb da Qərblə körpüləri yandırmamasını diktə edir. Bəsit səbəbdən: ona görə ki, ABŞ Azərbaycansız keçinə, mövcud ola, yaşaya bilər, Azərbaycan isə sabiq səfir Riçard Morninqstarın sözləri ilə desək, Amerikasız, Qərbsiz öz milli təhlükəsizliyini təmin eləmək gücündə deyil, ən yaxşı halda o, Rusiyanın bir quberniyası statusuna ümidlənə bilər - qonşu Ermənistan kimi.

Bu, heç də "pislərin içindən ən yaxşısını seçmək" məsələsi deyil, dünyada və böyür-başımızda gedən mürəkkəb geosiyasi proseslərin və yeni qlobal hədələrin məntiqindən doğan zərurətdir, ehtiyacdır...



Fəzail Ağamalı

# "Avropa Oyunlarına görə həbslər olacağı əsassız fikirdir"

## Fəzail Ağamalı: "Anti-Azərbaycan koalisiyası mövcuddur və..."

**Bu ilin iyununda Bakıda keçiriləcək Avropa Oyunları ölkədəki siyasi situasiyanı dünyanın diqqətimə çatdırmaqda növbəti tramplin ola bilər. Necə ki, "Eurovision-2012" yarışmasında müsabiqə bir yana qaldı və əcnəbi jurnalistlər paytaxtda təşkil edilən nümayişləri çəkib dünya mediasında yayımladı. Müsabiqədən sonra isə siyasi motivli həbslər başlandı.**

Analoji proseslərin Avropa Oyunlarından sonra da təkrarlanacağı ehtimal edilir. Müxalifətin boykot çağırışları, siyasi dustaqlara azadlıq tələbi ilə aksiyalar başlamaq təklifi hakimiyyəti yenidən qıcıqlandıra bilər.

Siyasi şərhçi Ərəstun Oruclu yarışma ərəfəsində insan haqları müdafiə təşkilatı üzvlərinin həbsini hesablanmış tədbirlər hesab edir. Analitik musavat.com-a açıqlamasında yarışmaya sayılı günlər qalmış repressiyalar olacağını da istisna etməyib.

İqtidaryönlü deputat Fəzail Ağamalının fikrincə isə fəaliyyətdə olan anti-Azərbaycan koalisiyası mövcuddur və onların şəbəkəsi geniş bir miqyası əhatə edir. Deputat "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, bu koalisiya Azərbaycanı sevməyənlərdən ibarətdir və erməni diasporunun təsiri altındadır. Deputatın sözlərinə görə, antimilli qüvvələr olan bu koalisiya üzvləri "Eurovision" yarışması keçirilən günlərdə də fəallıq nümayiş etdirirdi.

**F.Ağamalı hesab edir ki, onlar Azərbaycanı aşağılamaq üçün ən gözlənilməz addımları atmaqdan belə çəkinmədilər:** "Ancaq xalqın iradəsinə söykənən prezidentin qətiyyətli mövqeyi və hüquq-mühafizə orqanlarının peşəkarlığı nəticəsində bu təxribatların qarşısı alındı. Bu yarışma ölkəmizin tanınmasında ciddi rol oynadı və həmin təxribatlar nəticə vermədi. İndi yeni bir beynəlxalq yarışma ərəfəsindəyik. Dünya və Avropa ölkələri Azərbaycana maraq göstərirlər. Artıq ölkə prezidenti və Avropa Oyunlarının təşkilat komitəsinin sədri Mehriban Əliyeva hazırlıqlarla tanış olublar və gedişatdan razı qalıblar. Əminəm ki, iyunda keçiriləcək bu tədbir də "Eurovision" kimi ən yüksək səviyyədə təşkil olunacaq".

**Deputat bu yarışma ərəfəsində Azərbaycana qarşı təzyiq və təhdidlər olacaqsa, onun qarşısının alınacağına əmindir:** "Azərbaycanın peşəkar hüquq-mühafizə orqanları sistemi var və güc strukturları bütün təxribatları önləməyə hazırdır.

Azərbaycana qarşı olan koalisiyada bəzi siyasi partiyalar, jurnalistlər, vətəndaş cəmiyyəti üzvləri var ki, onlara qrantlar göndərilir, maliyyələşdirilir. Ondan sonra həmin təşkilatların sifarişlərini yerinə yetirirlər. Bu sifarişlər Avropa Oyunları ərəfəsində də hiss olunur, müəyyən çağırışlar səslənir".

**F.Ağamalı qanundankənar aksiyalar keçirilərsə, həbslər olacağını istisna etmir:** ""Eurovision" günlərində həbslər aksiyalara görə olmayıb. Bu aksiyalar zamanı qanunlar ciddi şəkildə pozulub, təhlükəsizlik tədbirlərinə zidd addım atılıb. Ona görə də qanunsuzluğa yol verənlər məsuliyyətə cəlb edilib. Bundan sonra da olacaqsa, müvafiq addımlar atıla bilər və atılmalıdır. Əgər təhlükəsizliyə dair problem yaranarsa, Avropa Oyunlarının gedişinə hər hansı maneçilik törədilərsə, o zaman hüquq-mühafizə orqanları dərhal addımlar atacaq. İdmançıların yaşadığı binaların qarşısında, yarışma keçirilən ərazidə aksiya təşkil olunsa, dərhal qarşısı alınmalıdır. Bakıda kütləvi aksiyalar keçirmək üçün Bakı Şəhər İcra Hakimiyyətinə müraciət olunmalıdır və meriyanın məsləhət bildiyi ərazidə mitinqlər olmalıdır.

Yarışma keçiriləcək ərazidə aksiyaların təşkili mənəvi dəyərlərimizə və qanunlarımıza zidd addımdır. Belə olan halda, yəni qanunsuzluq edilərsə, həbslər həyata keçirilməlidir. Xüsusi olaraq Avropa Oyunlarına görə həbslər olacağı barədə deyilənlər indidən ortaya atılmış və tirajlanmış əsassız fikirdir".

❑ E.SALAMOĞLU

# "Bu il istehlakçılar və sahibkarlar üçün ağır olacaq"

## Qubad İbadoğlu: "Ən böyük çətinlik ailə büdcəsinin xərclərinin artımı ilə bağlı olacaq"

**"Ötən ilin iqtisadi yekunları gözlənildiyi qədər uğurlu olmadı, qarşıladığımız 2015-ci ilin isə istehlakçılar və sahibkarlar üçün ağır il olacağı gözlənilir". İqtisadçı ekspert Qubad İbadoğlu 2014-cü ili dəyərləndirərkən belə deyib. O, həmçinin 2015-ci illə bağlı gözləntilərini də açıqlayıb.**

**Ekspert qeyd edib ki, ilin sonuncu rübündən başlayaraq dünya bazarında xam neftin qiymətlərinin ucuzlaşması Azərbaycanın ixracatdan valyuta hasılatının, eləcə də dövlətin maliyyə gəlirlərinin azalmasını şərtləndirdi və bu da öz növbəsində ümumi daxili məhsulun (ÜDM) artım tempinə təsirsiz ötüşməyib:** "Ötən il sənaye ili elan olunsa da milli iqtisadiyyatın bu önəmli sahəsində məhsul istehsalı əvvəlki ilin yanvar-noyabr ayları ilə müqayisədə 2014-cü ilin 11 ayında 1,5 faiz, eyni dövr ərzində digər vacib sektor olan kənd təsərrüfatında ümumi məhsul istehsalı 2,9 faiz azaldı. Gömrük məlumatlarına görə, xarici ticarət dövriyyəsi 6,7 faiz aşağı düşüb. İl ərzində diqqəti çəkən ən böyük iqtisadi hadisələr dünya bazarındakı qiymət dəyişmələrinin və Rusiyanın valyuta bazarındakı böhran meyllərinin Azərbaycana birbaşa təsirləri ilə bağlı oldu".

**Q.İbadoğlu deyib ki, 2014-cü ildə iqtisadiyyatın struktur və kadr tərkibində ciddi dəyişikliklər qeydə alınmayıb, yalnız kənd təsərrüfatı və əmək və əhalinin sosial müdafiəsi nazirliklərində kadr dəyişiklikləri olub:** "Ötən il ərzində korrupsiya ilə mübarizə, dövlət vəsaitlərinin xərclənməsinə ictimai nəzarətin təşkili yerli və beynəlxalq ekspertlər tərəfindən az səmərəli qiymətləndirildi və Beynəlxalq Şəffaflıq Təşkilatı tərəfindən ilin sonunda açıqlanan reytinqdə Azərbaycan 29 balla 175 ölkə arasında 126-cı sırada yer aldı. İl ərzində Norveçin "Statoil" dövlət neft-qaz şirkəti "Şahdəniz" layihəsindəki 15,5 faiz payını, Cənubi Qafqaz qaz kəməri layihəsindəki 12,4 faiz payını sataraq Azərbaycandakı fəaliyyətini məhdudlaşdırdı. İlin sonunda Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsi çərçivəsində Gürcüstan ərazisində inşası davam edən Axalkalaki-Kartsaxi *(Türkiyə sərhədi)* sahəsində ilk sınaq qatarının xəttə buraxılması əhəmiyyətli hadisələrdən hesab oluna bilər".

**Ekspert qeyd edib ki, ötən ilin 11 aylıq yekunlarına görə, qeyri-neft və qaz bölməsindən büdcəyə 3,9 milyard manat və ya büdcə gəlirlərinin 25 faizi qədər vəsait daxil olub:** "Bu da o deməkdir ki, ötən ildə dövlət büdcəsinin 75 faizindən çoxu neft-qaz bölməsindən daxilolmalar hesabına icra olunub. İlin sonunda Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsinin gəlirləri 19 milyard 438 milyon manat, xərcləri 21 milyard 100 milyon manat məbləğində təsdiq edildi. Neft Fondunun gəlirləri hesaba alınmamaqla 2015-ci il icmal büdcəsinin kəsiri 15 milyard 440 milyon manat məbləğində müəyyən edildi. Bu, neft gəlirləri nəzərə alınmadan büdcənin hansı vəziyyətdə olmasını əks etdirən risk göstəricisi kimi də qəbul oluna bilər.



Qubad İbadoğlu

Büdcə paketi ilə birgə Milli Məclisə təqdim edilən vergi qanunvericiliyinə olan dəyişikliklərdən məlum oldu ki, gələn ildən vergi yükünün artırılmasından ən çox əziyyət çəkən fiziki şəxslər və kiçik sahibkarlar olacaq. Belə ki, 2015-ci ildən etibarən banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlər üzrə gəlir vergisi tətbiq olunmağa başladı. Bu dəyişiklik 5,3 milyon nəfər əmanətçinin gəlirlərinə azaldıcı təsir göstərməklə dövlət büdcəsinə əlavə olaraq 70 milyon manata qədər vəsait qazandıracaq. Beləliklə, dövlətin bu mənbədən orta hesabla 70 milyon manatlıq qazancı əmanətçilərin həmin məbləğ qədər itkiləri hesabına başa gələcək".

**Q.İbadoğlu deyib ki, cari ildən istehlakçıların xərclərini artıracaq digər dəyişiklik fiziki şəxslərin əmlak vergisi ilə bağlı olub:** "2015-ci il yanvarın 1-dən Azərbaycanda fiziki şəxslər əmlak vergisini inventar dəyərinə görə deyil, onların xüsusi mülkiyyətində olan mənzillərin sahəsindən asılı olaraq ödəyəcəklər. Yeni dəyişikliyə görə, əmlak vergisi 30 kvadratmetrdən çox olan sahənin hər kvadratmetrinə görə hesablanacaq və regionlar üzrə fərqləndiriləcək. Bu ildən etibarən 10 sotdan çox torpaq sahəsi olan fiziki şəxslər də əvvəlki illə müqayisədə daha çox vergi ödəmək məcburiyyətində qalacaqlar. Bu il avtomobil həvəskarları üçün də bəd xəbərlərlə başlayıb. Son dəyişikliyə görə, idxal olunan avtomobillərə tətbiq edilən yeni aksiz dərəcələri istehlakçıların xərclərini mühərrikin həcmindən asılı olaraq ən azı 100 manat və ən çoxu 13300 manat artıracaq. 2015-ci ildə aksiz dərəcələrinin artımı nəticəsində qiymətləri bahalaşacaq mallar siyahısına etil spirti, araq, tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatları, konyak və konyak materialları, şampan şərabı, pivə *(alkoqolsuz pivə istisna olmaqla)* və pivə tərkibli digər içkilər daxildir. Bununla yanaşı, siqarlar, eləcə də tütündən hazırlanmış siqaretlər və onun əvəzedicilərı aksiz dərəcəsinin artırılmasına görə bahalaşacaq".

Ekspert qeyd edib ki, Azərbaycana idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın da aksizli malların siyahısına aid edilməsi təklif olunduğundan bu sahədə də qiymət artımı gözlənilir.

"Göründüyü kimi, 2015-ci ildə ən böyük çətinlik ailə büdcəsinin xərclərinin artımı və gəlirlərinin azalması, bir sözlə, əhalinin rifahının yüksəldilməsi sahəsində olacaq. Çünki yuxarıda adı sadalanan məhsulların qiymətlərinin bahalaşması ümumi qiymət səviyyəsinin də artımını şərtləndirəcək. Bu isə Azərbaycan Mərkəzi Bankının növbəti il üçün hədəflədiyi 2-3 faizlik inflyasiya səviyyəsini qorumaqda çətinliklər yaradacaq. AMB-nin məzənnə rejiminin əsasən dəyişməz saxlanılmasına dair bəyanatı milli valyutanın sabitliyinə təminat versə də, bütövlükdə manatın taleyi dünya bazarında neftin qiymətinin hansı səviyyəyə və nə müddətə qədər ucuzlaşmasından asılı olacaq",- deyə o, vurğulayıb.

**Ekspertin sözlərinə görə, bu il Rusiyada rublun dəyərsizləşməsi və xam neftin qiymətinin ucuzlaşmasının davam edəcəyi halda, Azərbaycanda alıcılıq qabiliyyəti kəskin aşağı düşəcək:** "Bu da xüsusilə qeyri-ərzaq mallarının və məişət məhsullarının satışının əhəmiyyətli dərəcədə azalmasını şərtləndirəcək. Nəticədə bu il bir tərəfdən ailə büdcəsində ərzaq xərcləmələrinə yönələn vəsaitlərin həcmi artacaq, digər tərəfdən də qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan ticarətçilər böhran şəraitində işləməli olacaqlar.

Yeni ildə yeni şərtlərlə işləmək məcburiyyətində qalan milli iqtisadiyyatın neftin dünya bazar qiymətlərinin ucuzlaşmasına və Rusiyadakı böhrana necə adaptasiya olunacağından da çox şey asılıdır. Əks təqdirdə, yaranmış vəziyyətdən ən çox əziyyət çəkən yalnız istehlakçılar deyil, həm də kiçik və orta sahibkarlar olacaq".

❑ RÖYA



## Ümid Partiyasının İcra Aparatı toplantı keçirdi

**Yanvarın 5-da Ümid Partiyası İcra Aparatı növbəti toplantısını keçirib. Toplantıda 2014-cü ilin yekunları, şöbələrin cari və strateji fəaliyyət planı, qarşıda duran vəzifələr müzakirə olunub. Görülən işlərlə bağlı şöbə sədrlərinin hesabatı dinlənilib. Sonda İcra Aparatının rəhbəri Taleh Əliyev şöbə müdirlərinə tapşırıq və tövsiyələr verib.**



# İqbal Ağazadə Əmir Haşimi ilə görüşdü

**Yanvarın 5-də Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə İsveçdə fəaliyyət göstərən Güney Azərbaycan Konqresinin sədri və Güney Azərbaycan Müvəqqəti Mühacir Parlamentinin təsisçilərindən olan Abdulla Əmir Haşimi Cavanşiri qəbul edib.**







Görüşdə Güney Azərbaycandakı son durum və soydaşlarımızın haqqları uğrunda xaricdə görülməli olan işlər haqda geniş müzakirə aparılıb.

İsveçdə yaşayan soydaşımız İqbal Ağazadəni və Ümid Partiyası üzvlərini Yeni İl münasibətilə təbrik edərək partiyanın Güney davasına verdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Ümid sədri də haqlı mübarizədə hər zaman güneyli soydaşlarımızın yanında olacağını bəyan edib.

Görüşdə Ümid Partiyası sədrinin İctimaiyyətlə əlaqələr və xaricdə yaşayan soydaşlarımızla iş üzrə müavini Rüfət Muradlı da iştirak edib.

# Toplum olaraq zorakılıq hallarına yox deməliyik

## Zorakılıq hallarına müdaxilə etmədikcə hadisələrin sayı durmadan artır, cəmiyyətdə ictimai qınaq azalır, ədalətsizlik, insanların bir-birinə qarşı hörmətsizliyi gündən-günə artır

**Zəif fərdlər həm fiziki, həm də maddi cəhətdən cəmiyyətdə, işdə tutduğu vəzifədən asılı olmayaraq zorakılığa, qeyri insani və insan ləyaqətini alçaldan rəftara məruz qalaraq inkişafdan, arzuladığı gələcəyə sahiblənməkdən məhrum olurlar.**
**Bu həyatın bütün sferalarında - həm iş həyatında, həm ailədə, həm məktəbdə, həm cəzaçəkmə müəssisələrində, həm də digər bu kimi yerlərdə mövcuddur.**



**Həcər Abbaslı**
Ümid Partiyası
Gender Bərabərliyi
şöbəsinin müdiri

Yaşadığımız cəmiyyətdə yuxarıda sadaladığım pozuntuların əksəriyyəti ən çox ailədə baş verir və qadınlara qarşı törədilir. Ailə kiçik bir dövlətdir və orada baş verən zorakılıqlar öz mənfi təsirini cəmiyyətə əks etdirir.

Zorakılıq, yəni qeyri-insani rəftar qanunla qadağan edilib və bunu həyata keçirənlər üçün qanunda bir çox cəza növləri müəyyən olunub. Lakin bu qanuni qadağalar zorakılığın qarşısını almır, insanların işgəncələrə, qeyri-insani rəftara olan ehtirasını, marağını və ya aludəçiliyini aradan qaldırmır. Cəmiyyətdə baş verən hadisələrə nəzər salsaq atanın oğlunu, oğulun atanı və ya ananı, ərin arvadı və ya arvadın ərini öldürdüyünü, ərin arvadına qarşı zorakılıq hallarının, valideynlərin övladlarına qarşı qeyri-insani rəftarının artdığını görürük. Zorakılığa məruz qalan insanların hüquqları pozulur, hüquq pozanlar qanunla cəzalandırılır və ya cəzadan müxtəlif yollarla yayınır, lakin ümumilikdə götürdükdə bu kimi pozuntuların sayı azalmır. Pozuntunun qarşısını almaq üçün ilk növbədə, səbəbini, mənfi təsirlərini, mənfi təsirin nəticələrini müəyyən etmək lazımdır.

Cəmiyyətdə zorakılığın, qeyri-insani rəftarın meydana gəlməsinin səbəblərini araşdırarkən insanlar arasında mövcud olan münasibətlər, cəmiyyətdəki problemlər nəzərdən keçirilməlidir. Çünki hüquq pozuntularının meydana gəlməsi insanlar arasında mövcud münasibətlərdə yaranan boşluqlardan, cəmiyyətdə olan çatışmazlıqlardan irəli gəlir. İşsizlik, ədalətsizlik, reallıqda mövcud olmayan hüquqi bərabərlik, korrupsiya və s. insanlar arasında mövcud olan münasibətlərdə boşluqlar yaradır. Məsələn, şikayətlərinə məhəl qoyulmadığı üçün qeyri-insani rəftara dözməyən arvad ərini qətlə yetirir. Bir çox hallarda hadisəni adi qarşılayıb həmin hadisəni törətmiş qadını qınayır, hətta onu bu hadisəni törətdiyi üçün insan hesab etmirik. Belə bir sual yarana bilər, həmin qadının yerində onu qınayan bir insan olsaydı nə edərdi? Polisə ərinin onu döydüyünü şikayətmi edərdi, yoxsa boşanardı? Axı həmin qadın savadsız, üç uşaqla boşandıqdan və ya şikayət etdikdən sonra əri tərəfindən atıldıqdan sonra nə edəcək? Dilənçilikmi, yoxsa üç övladını təhsilsiz buraxaraq onlardan istifadə edib pul qazanacaq və ya öz övladlarına təhsil vermək, şərait yaratmaq üçün öz bədənini sataraq pozğun həyat yaşayacaq? Belə vəziyyətlərə daha çox savadsız qadınlar düşdüyü üçün bəzən onlar üçün seçim etmək çox çətin olur. Çıxış yolu boşanma və ya şikayət etmə deyil. Çünki zorakılığın və qeyri-insani rəftarın sayı artdıqca bu kimi pozuntuların əhatə dairəsi genişlənir, münasibətlər gərginləşir, boşanmaların, ailə zorakılığının, insan alverinin və s. sayı artmağa başlayır. Belə pozuntuların sayı artdıqca, xəbərlərdə tez-tez nümayiş etdirildikcə hadisələrə insanların baxışı adiləşir, ictimai qınaq azalmağa başlayır. Bu kimi hadisələrdən daha çox əziyyət çəkənlər isə qadınlar və uşaqlar olur. Boşanma və ya ailədaxili zorakılıq nəticəsində qadınlar köməksiz qalır, uşaqlar alimentdən, qayğıdan, normal təhsil almaqdan məhrum olurlar. Bu belə davam etdikcə zorakılıqların sayı zəncirvari şəkildə artmağa başlayır, günlər keçdikcə bunun qarşısını almaq mümkün olmur.

Əslində bu kimi pozuntuların yaranmasında bütün vətəndaşlar məsuliyyət daşıyırlar. Ətrafımızda olan insanlar, qonşumuz, qohumumuz ədalətsizlik edərkən, kiminsə hüququnu pozarkən göz yumub biganə qalmamalı, müdaxilə edərək hüququ pozulanı müdafiə etməli, baş verən ədalətsizliyin qarşısını almalıyıq. Düşünməliyik ki, bu cür hallar hər birimizin başına gələ bilər. Baş verən zorakılıq hallarına müdaxilə etmədikcə hadisələrin sayı durmadan artır, cəmiyyətdə ictimai qınaq azalır, ədalətsizlik, hörmətsizlik gündən günə artır. Buna görə də toplum olaraq zorakılıqlara, qanun pozuntularına, haqsızlıqlara yox deməliyik.

YENİ MÜSAVAT
N 1 (6029) 6 yanvar 2015



# Hələ 360 gün qalır!

Zamin HACI
zaminhaci@gmail.com

**İl təzə başlayıb, cəmi beş gün keçibdir, “dünya beş günlükdür” deyən biz azərbaycanlılar üçün də prinsipcə böyük dəyişiklik olmayıbdır. Həmişəki durumdur: yenə Şaxta baba uşaqlara ən saxta İran-Türkiyə peçenyelərindən pulu səfeh valideynlər tərəfindən ödənilən hədiyyələr gətirib (tək özünüzə götürməyin, o cür valideynlərdən biri də mənəm), yenə yollarda maşınlar toqquşub, camaat qırılıb, yenə hansısa manıs uca millətimizi təhqir edib, biz də bundan qəzəblənib qılıncı götürüb meydana girmişik. Adam heç bilmir nə yazsın. Mənim yerimə siz olsanız nə yazardınız? Üstəlik, açıq-aşkar yazanları zindana doldurublarsa...**

Əlbəttə, ümid edə bilərik ki, qarşıdan gələn 360 gün həyatımız 360 dərəcə fırlanıb tamam yeni bir həyat olacaqdır! *(Riyaziyyatı Misir və Mikayıl müəllimin vaxtında oxumusunuzsa bu cümlədən tam xoşbəxt olmaq haqqınız vardır)*. Qarabağ və ətraf rayonlarda, fısqırıq paralellə mısmırıq meridian arasında yerləşən ana vətənimizdə ədalət bərpa olunacaqdır, Səfər müəllim də geri qayıdacaqdır. Aha, mövzu tapıldı!

Demək, qış tətili günlərində sevgili xalqımızın əsas müzakirə mövzularından biri də keçmiş müdafiə naziri Səfər Əbiyevin Çexiyada malikanə və vətəndaşlıq alması xəbəri idi. Sonra dedilər guya bu xəbər yalandır. Hərçənd, doğru olsa neyləyəcəksiniz? Bizim üçün fərqi nədir? Ona qalsa bir keçmiş müdafiə nazirimiz Rusiya vətəndaşıdır, keçmiş deputatxana spikeri Amerikada viski hortdadır, bir milli qəhrəmanımız İsveçdə dönər satır, bir respublika şefimiz də Moskvada qoz əkir. Hələ bunlar qəfil yadıma düşənlərdir, vətəni ya vəlvələdən, ya zəlzələdən atıb gedən tanınmışlarımız minlərlədir. Sanki bir az böyüyəndən sonra bura sığışa bilmirik. İnsafən, balaca ərazidir. İndi böyründən kəsilən də getsə lap heç zad qalacaq, o zaman tanınmayanlar hamıdan qabaq qaçacaq.

Ancaq Səfər müəllimin mühacirət söhbəti maraqlı hadisələrlə müşayiət edildi. Məsələn, keçən ilin sonunda onun iki keçmiş kadrı zindandan buraxıldı: keçmiş admiral *(keçən ildən yazırsansa hər şey keçmiş alınır)* Şahin Sultanov və zəlzələşünas-polkovnik Elçin Xəlilov. Belə çıxırdı ki, şanlı hüquq-mühafizə orqanlarımız artıq Səfər müəllimlə “dil tapıblar”. Eyni zamanda Səfər müəllimin keçmiş müavini Mehman Səlimov həbs edilmişdi. Hərbidə “dil gətirmək” əsir götürməyə deyilir, bu baxımdan hesab edə bilərik ki, Əbiyevin ətrafında əsirlərin dəyişdirilməsi əhvalatı olmuşdur. İnşallah, tezliklə Mehman müəllim də çıxar, o zaman da məlum olar ki, Səlimovun azadlığı üçün Səfər müəllim Karlovı-Varıda karlı var-dövlətdən vaz keçmişdir.

Bunlar hamısı bizim yapist sistemin Qarabağ münaqişəsi ətrafında əməliyyatlarıdır. Avam camaat belə hərbi sirləri bilməsə yaxşıdır. Siz gedin bulvarda kanalizasiya suları ilə selfi çəkdirin, şpaqat açan xalanın videosunu müzakirə edin, nə bilim, başqa nə cür kefiniz istəsə elə də xoşbəxt olun.

Şpaqat demişkən, dəyərli oxucularımız bilir, mən televizora baxmıram, ancaq orda-burda hərdən gözümə verilişlər sataşır. 31 dekabr axşamı hansısa telekanalizasiyada maraqlı mənzərə gördüm: Telli Borçalı saz çalırdı, həmin şpaqat açan aparıcı da veriliş aparırdı. Yeni ilə bu cür girən millətin axırı necə olmalıdır ki? Veriliş tam faciə idi: aparıcı ortalığa bir maşın nömrəsi gətirdi, dedi ki, bunu küçədən tapmışıq, kimindirsə gəlsin aparsın, bu zaman saz çalan xanım nömrənin yiyəsindən hələ şirinlik də istədi. Bu dəhşətli zarafata xeyli gülüşdülər, studiyada əl çalanlar arasında bir neçə nəfər hətta gülməkdən altını islatdı.

Sonda bir vacib qeyd edim: dünyanın normal dövlətlərinin heç birində Yeni il gecəsi “Prezidentin xalqa müraciəti” adında veriliş olmur. Bu avtoritar qayda SSRİ-dən qalmadır, hazırda ancaq deyəsən Rusiya və Azərbaycanda tətbiq edilir. Ləğv edilsə yaxşı olar. Əlbəttə, ümid edirəm bunu yazmaqla rəhbərliyin qəzəbinə səbəb olmadıq. Əfv edin məni! Lazımdırsa foto-video ilə xiyabana gedim.

İndi ta özünüz baxın, yeni ilimiz qutlu olacaq, ya olmayacaq.

# Azərbaycanlı jurnalistin həbsində MKİ müəmması

**AzadlıqRadiosunun keçmiş prezidenti Ceffri Qodmin “The Boston Globe” qəzetində dərc edilmiş məqaləsində jurnalist Xədicə İsmayılın həbsinə görə Mərkəzi Kəşfiyyat İdarəsini (MKİ) günahlandırıb. “Mərkəzi Kəşfiyyat İdarəsi jurnalistlərin ələ alınmasına qadağa qoyduğunu bəyan etməlidir” başlıqlı məqalədə deyilir ki, X.İsmayıl və həmkarlarına qarşı ittihamlara görə, onlar əslində jurnalistlər yox, MKİ agentləridir.**



# Xədicə İsmayıl Amerikanı qarışdırdı

## AzadlıqRadiosunun keçmiş rəhbəri Ceffri Qodmin xanım İsmayılın həbsində ABŞ Mərkəzi Kəşfiyyat İdarəsini suçlayıb; o, MKİ-nin jurnalistləri agent kimi çalışdırmasının rəsmən qadağan edilməsini tələb edib; **Arzu Nağıyev:** “Qodminin bu məqaləsi sensasiya yaratmağa xidmət edir”

“Bu, tamamilə cəfəngiyyatdır. Bununla belə, təəssüflər olsun ki, Amerika da bu bəhanənin irəli sürülməsinə kömək edib. Buna son qoyulmalıdır” -deyə C.Qodmin yazır.

Virtualaz.org saytının verdiyi xəbərə görə, məqalənin altında C.Qodminlə yanaşı, Boston kollecinin tələbəsi, ictimai diplomatiya və ABŞ-ın xaricdəki imici üzrə araşdırmaların müəllifi Marta Baylesin də imzası var.

Məqalədə deyilir ki, AzadlıqRadiosu 1949-cu ildə Şərqi Avropa və Sovet İttifaqındakı kommunist rejimlərinin informasiya monopoliyasına son qoymaq üçün yaradılmışdı. Və radionun maliyyələşdirilməsi MKİ-dən gizli həyata keçirilirdi. Bu gizli maliyyələşdirmə 1967-ci ildə jurnalist araşdırmaları nəticəsində üzə çıxdı. 1971-ci ildə isə bu maliyyələşdirmə dayandı. 1972-ci ildə Konqres AzadlıqRadiosunun müstəqil media şirkəti kimi açıq şəkildə maliyyələşdirilməsinə səs verdi.

**“Bu gün özəl KİV sektorunda AzadlıqRadiosunu ABŞ hökumətinin aləti hesab etmək tendensiyası var. Bu, ironiyadır. Çünki AzadlıqRadiosu hökumətdən məsafə saxlamaq prinsipinə sadiqdir. Ancaq bu, daha geniş sual meydana çıxarır. Mərkəzi Kəşfiyyat İdarəsi jurnalistləri “verbovka” etməlidirmi?"** - deyə müəllif sual edir.

C.Qodmin yazır ki, Amerikanın milli təhlükəsizlik maraqları naminə jurnalistlərin və dövlət strukturlarının əməkdaşlığı praktikası var. Jurnalistlərin “verbovka” olunması və kəşfiyyatçıların jurnalist pərdəsi altında xarici ölkələrdə yerləşdirilməsi belə görünür ki, 1977-ci ildə qadağan olunub. Ancaq zahiri görünüş aldadıcı ola bilər.

Müəllif yazır ki, bundan 20 il sonra - 1996-cı ildə Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Con Deuça idarənin jurnalistlərdən casus kimi istifadə etmək və casusları jurnalist adı altında yerləşdirmək hüququnu özündə saxladığı barədə məruzə etdilər.

O vaxtdan bu yana məsələ açıq qalır. Qismən də ona görə ki, MKİ bu praktikadan tamamilə imtina etdiyini açıq şəkildə elan etmir. Və amerikalılar bu imkandan zarafat üçün də yararlanırlar. Məsələn, “Sony Production” şirkətinin çəkdiyi “Müsahibə” filmində televiziya tok-şousunun aparıcısı və onun prodüseri MKİ tərəfindən Şimali Koreya lideri Kim Çen Inı öldürmık üçün “verbovka” olunur.

**“Ən azından iki səbəb var ki, MKİ, nəhayət, jurnalistlərin ələ alınmasının və agentlərin jurnalist adı altında yerləşdirilməsinin qadağan edilməsini elan etməlidir. Birincisi, bu praktika bitərəf jurnalistikanı təhlükəli edir. 1985-ci ildə ”Hizbullah" tərəfindən əsir götürülən “Assoşieyted press” reportyoru Terri Andersondan soruşun. Onu MKİ agenti olmaqda ittiham edirdilər. 1991-ci ildə azad olunandan sonra Anderson televiziya verilişləri ilə casusluq arasında fərqlərə qarşı açıq şəkildə çıxış edirdi.**

**Bu, o demək deyil ki, əgər MKİ-nin siyasəti daha az dumanlı və problemli olsaydı, taliblər “Wall Street Journal”ın reportyoru Daniel Perli öldürməzdilər və ya Azərbaycan polisi Xədicə İsmayılı həbs etməzdi. Lakin məsələ risklərin idarə edilməsinə gələndə jurnalistlərin ələ alınmasına qadağa qoyulması pozitiv addım olacaq. Belə qadağanın olmaması Amerikanın müttəfiqlərini ona etimadına zərbə vurur və düşmənlərinin ocağına yağ tökür"** - məqalədə belə deyilir.



Ceffri Qodmin



Arzu Nağıyev

***

Qeyd edək ki, Xədicə İsmayılla bağlı bu cür iddialar yeni deyil. Onun ölkə başçısı İlham Əliyevlə və onun ailəsi ilə bağlı araşdırma yazılarının jurnalistə ABŞ kəşfiyyatının ötürdüyü iddiası neçə vaxtdır ortadadır. Amma X.İsmayıl hər dəfə bu iddiaları təkzib edərək bildirib ki, araşdırmalar onun özünə məxsusdur.

Xatırladaq ki, ötən ilin fevralında jurnalist Eynulla Fətullayev “Tam məxfi: ABŞ kəşfiyyatçıları və Xədicə İsmayılın casus hesabatı...” adlı məqaləsində bu mövzuya toxunmuşdu. Onun haqqın.az və virtualaz.org saytlarında dərc etdirdiyi həmin məqalədə ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin iki tədqiqatçısı - Con Zadrozninin və Daniel Vajdiçin Bakı səfəri zamanı keçirdiyi görüşdən bəhs edilirdi. Onun iddiasına görə, tanınmış jurnalist Xədicə İsmayıl ABŞ-dan gələn həmin tədqiqatçılara Azərbaycanda hakimiyyətlə əməkdaşlıq edən tanınmış siyasətçilərin, ictimai xadimlərin siyahısını verib.

**Mövzu ilə bağlı sabiq təhlükəsizlik zabiti, politoloq Arzu Nağıyev “Yeni Müsavat”a deyib ki, jurnalistlərin kəşfiyyatla əməkdaşlığa cəlb edilməsi praktikasına rast gəlinsə də kifayət qədər riskli hesab olunur:** “Hər hansı bir şəxsin və onun peşəkar fəaliyyətinin kəşfiyyatı maraqlandıran tərəfləri olmasa, bu məsələyə gedilməz. Çünki bu, riskli bir işdir. Əgər bir müddət sonra bu məsələlər aşkarlanırsa, daha bunun nəyi kəşfiyyat oldu?! Cəlb edilən hər bir şəxsin əməliyyat imkanları olmalıdır ki, məlumat əldə edə bilsin və sonradan bunu açıqladıqda bütün şübhələrdən kənarda qalsın”.

**Ekspert bildirib ki, bəzi hallarda, xüsusi vəziyyətlərdə bu cür hallar olur, ancaq indiki halda konkret olaraq AzadlıqRadiosunun işi ilə bağlı nəsə demək mümkün deyil:** “Jurnalist kimliyi ilə kəşfiyyatların, ayrı-ayrı dövlətlərin öz agentlərini qaynar bölgələrə, müharibə gedən nöqtələrə yerləşdirməsi təzə söhbət deyil. Burda qeyri-adi bir iş də yoxdu. Kəşfiyyat istənilən kimlikdə öz agenturasını harasa yerləşdirəcək, məlumat əldə edə bilməsi naminə bütün addımlara gedəcək. Bu, ”jurnalist" də ola bilər, “hotel bələdçisi” də, “qarson” da. AzadlıqRadiosu ilə bağlı isə hazırda istintaq gedir, hər hansı bir nəticə əldə edilərsə buna uyğun olaraq danışmaq olar. Dünya üzrə kəşfiyyatların fəaliyyətindən bəhs edən onlarla sənədli filmlər, kitablar, araşdırmalar var. Orda olan faktlar qeyri-peşəkarlar üçün sensasiya sayıla, şok yarada bilər. Fəqət həmin faktlar peşəkarları əsla təəccübləndirmir, çünki bu, kəşfiyyatın işidir..."

**Konkret olaraq Qodminin iddiasına gəlincə, A.Nağıyev deyir ki, məqalədə konkret iddia və fakt yoxdur:** “Birincisi, Qodmin bunu nəyə əsaslanıb deyir, məlum deyil. İkincisi, hətta belə bir hal olubsa da niyə MKİ bunu açıqlamalıdır? Üçüncüsü də odur ki, məgər kəşfiyyatla əlaqəsi olmaq, peşəsindən asılı olmayaraq öz dövləti üçün nə isə etmək şərəfsizlikdir? Lakin maliyyə və digər maraqlar müqabilində digər dövlətin maraqları üçün casusluq etmək yolverilməzdir, bu, Vətənə, dövlətə birbaşa xəyanət sayılır. Bilirsiniz, hər hansı bir şəxsi casusluqda və ya xarici xüsusi xidmət orqanları ilə əlaqədə suçlamaq böyük bir risk tələb edir, gərək sən o qədər dəqiq arqumentlərə söykənəsən ki, bunu iddia edə biləsən. Qodminin məsələsi də buna bənzəyir. Heç olmasa konkret bir fakt ortaya qoyarsa, başqa cür danışmaq olar. Düşünürəm ki, bu, növbəti bir sensasiya xarakterli yazıdır”.

***

A.Nağıyevin peşəkarlığını və təcrübəsini şübhə altına almadan qeyd etmək istərdik ki, Ceffri Qodmin kimi bir şəxsin sensasiya xatirinə bu cür ciddi iddialar ortaya qoyması, məqalə yazması heç inandırıcı görünmür. Ortada çox ciddi bir fakt var: X.İsmayılın həbsi, ardınca Azadlıq Radiosunun Bakı bürosunun qapısının prokurorluq müstəntiqləri tərəfindən möhürlənməsi təkcə ABŞ-Azərbaycan münasibətlərini gərginləşdirməyib, bu olaylar həm də Amerikanı, Ağ Evi qarışdırıb. Qodminin məqaləsinin son olacağı inandırıcı gəlmir. Belə çıxır ki, indən belə ABŞ-dan gözlənilməz açıqlamalar, sensasion məqalələr gəlməkdə davam edəcək.

❑ Kənan RÖVŞƏNOĞLU

YENİ MÜSAVAT
N 1 (6029) 6 yanvar 2015

**Ötən ilin son ayında AzadlıqRadiosunun fəaliyyətinin dayandırılması 2015-ci ildə ABŞ-Azərbaycan münasibətlərində gərginliyin daha da artacağı barədə ehtimalları çoxaldıb. Bir sıra ekspertlər radionun qapadılmasını Amerikanın sonuncu qalasının zəbti kimi dəyərləndirir.**



# Devid Kramer Azərbaycana qarşı sanksiyaların tətbiqinə çağırdı

Müzakirələrin gedişində bir sıra maraqlı şərhlər də ortaya çıxır. Məsələn, AzadlıqRadiosunun Azərbaycan bürosunun sabiq rəhbəri Mirzə Xəzərin radio barədə sensasion açıqlamaları yayılıb. “2000-2003-cü illərdə ”Azad Avropa" və AzadlıqRadiolarının rəhbərliyi Bakı bürosuna bir sıra qadağalar tətbiq etmişdi. Bu qadağalara əsasən, şəxsi fikir ifadə etmək olmaz, korrupsiyadan yazmaq, hökuməti tənqid etmək, “Cənubi Azərbaycan” kəlməsindən istifadə etmək, “erməni işğalçıları” təbirini işlətmək olmazdı... 2003-cü ilin sentyabrında redaksiyanın rəhbəri işdən çıxarıldı. Oktyabr ayında prezident seçkiləri keçirildi və İlham Əliyev dövlət başçısı seçildi. Sonrakı illərdə İlham Əliyev hökuməti ilə “Azadlıq” arasında “ittifaq” pozulmadı. AzadlıqRadiosuna FM dalğası verildi. Radionun bürosu rəsmi status aldı. Əsl bal ayı... Və qəflətən radionun siyasətində 180 dərəcə dönüş oldu. Radio İlham Əliyevə qarşı radikallaşdı".

**Bir vaxtlar AzadlıqRadiosunun aparıcı əməkdaşlarından biri olmuş Rövşən Əliyev isə iki ölkə arasındakı gərginliklərə görə radionun özünü günahlandırıb. R.Əliyev yazıb:** “Radionun tarixində Bakı-Ceyhana əngəl olmaqdan tutmuş İlham Əliyevi dəstəkləməyəcən, bu yaxınlarda Azərbaycan-Amerika münasibətlərini altdan-altdan pozmağa qədər çoxsaylı siyasi fəaliyyətlər olub. Radiodakı vertikal idarəçilik qaldıqca, iş yaxşı padşahların ümidinə buraxıldıqca belə də davam edəcək. Yaxşı padşah anlayışı isə mənim dünyagörüşümdə yoxdur. Mən o radionun düzəlməməsinin, ordakı bütün peşə pozuntularının, bütün əyintilərin səbəbini bunda görürəm. Elə Azərbaycanın özünün də düzəlməməsinin səbəbi bənzərdir. Bir haşiyəni də çıxım ki, tutalım, gürcü redaksiyasında Azərbaycan redaksiyasındakı qədər pozuntuların olması mümkün deyildi. Bu da ayrı söhbətdir. Burda istər jurnalist kollektivinin, istər auditoriyanın hazırlığı az rol oynamır. Ümumiyyətlə, AzadlıqRadiosu haqqında şərhlərin 90 faizi ilə razı deyiləm. İstər tərifləyənlərin, istər tənqid eləyənlərin arqumentləri çox vaxt sanballı olmur”.

“Dekabrın 18-də dövlət katibinin yardımçısı Tom Malinovski AzadlıqRadiosuna müsahibəsində Azərbaycan hakimiyyətinə xəbərdarlıq səsləndirdi ki, özünün ictimai sektora hücumları ilə ABŞ-Azərbaycan münasibətlərini təhlükə altına qoyur. Bundan 8 gün sonra prokurorluq və polis AzadlıqRadiosunun Bakı ofisinə basqın edərək avadanlıq və sənədləri müsadirə etdi, ofisi möhürlədi, radio əməkdaşlarını isə həbs və sorğu-suala məruz qoydu. Bu, ABŞ-a birbaşa meydan oxumaq idi, Obama administrasiyası İlham Əliyev rejiminə belə hərəkətlərin nəticəsiz qalmayacağını nümayiş etdirməlidir”. Bunu, “Freedom House”un sabiq prezidenti, hazırda Vaşinqtondakı **Makkeyn İnstitutunun baş direktoru Devid Kramer** yazıb. Müəllifin fikrincə, Obama administrasiyası Prezident Əliyevə xəbərdarlıq kimi 2 vacib addımı atmalıdır. Birinci təklif Maqnitski işindən sonra Rusiya rəsmilərinə qarşı yönələn sanksiyalara bənzər addımların Bakıya da tətbiq olunmasıdır. Kramer yazır ki, insan haqlarının pozulmasında iştirak edən Azərbaycanın vəzifəli şəxslərinə ABŞ vizası qadağası tətbiq olunmalı, onların ABŞ banklarındakı hesabları dondurulmalıdır: “2011-ci ilin avqustunda verilmiş rəsmi fərmana görə, ciddi insan haqları pozuntularına yol verən şəxslərə viza verilməsi qadağan olunur. Azərbaycanda keçiriləcək Avropa Oyunlarının boykot edilməsi haqda təşəbbüs irəli sürmək, Avropa liderlərini Soçi Olimpiadasında olduğu kimi açılış mərasimində iştirakdan imtina etməyə çağırmaqdır”.

**AzadlıqRadiosunun Bakı bürosunun baş redaktoru Zeynal Məmmədli şərhlərlə tanış olmadığı üçün heç nə deyə bilməyəcəyini bildirdi. Onu da qeyd etdi ki, bu kimi məsələlərə Praqadakı rəhbərlik şərh verə bilər. Bununla belə, Z.Məmmədli bəzi fikirlərini bölüşdü. Həmçinin Mirzə Xəzərin dediklərini oxuduğunu vurğuladı:** “Mən bütün bunlara şərh vermək istəmirəm. Bu, ayrı-ayrı adamların fikridir. Bunu nəyə görə deyirlər, şəxsi məqam var, ya yoxdur, dəqiq demək mümkün deyil. Mən ümumiyyətlə, media azadlığı məsələsinin şəxslərin münasibətləri çərçivəsində araşdırılması və müzakirəsinin əleyhinəyəm. Əslində bu, bizi həqiqətdən xeyli uzaqlaşdırar. Bu, maqazin, bir az da sarı media yanaşmasıdır. Yəni ciddi media məsələlərə daha dərindən yanaşmalıdır. Bunun üçün də informasiya çatışmazlığı var, odur ki, sizi də qınamıram. Ortada yarımçıq doğru və yarımçıq yalanlar var”.

**Z.Məmmədlidən radionun sonrakı taleyi ilə bağlı gözləntilərini də soruşduq. Bildirdi ki, o, məsələyə Azərbaycanda söz və media, ifadə azadlığının kontekstində baxır:** “Bütövlükdə Azərbaycan vətəndaşları buna ehtiyac hiss edir, ya yox? Ayrılıqda bir vətəndaş media azadlığı ilə bağlı nələrisə itirəndə öz güzəranında, düşüncəsində, yaşam tərzində hansısa dəyişiklik hiss edirmi? Mən məsələyə bu kontekstdən baxmağı xoşlayıram. Azərbaycan bundan itirirsə, təbii ki, vətəndaş çox ciddi həyəcan təbili çalmalıdır. Söhbət konkret bir qurumdan getmir. Balaca-balaca azadlıqlar səndən alınır, bir də görürsən ki, artıq müdafiə etməyə heç kim yoxdur, söhbət bundan gedir. Azərbaycanda ciddi, həyatı olduğu kimi verməyə çalışan media üçün təəssüf ki, imkan yoxdur”.

**“Şərq-Qərb” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu Mirzə Xəzərin dediklərini şərh edərkən dedi ki, radionun fəaliyyəti, onun imkanları haqqında son vaxtlar dərc olunan yazılarda bir çox yanlışlıqların olduğu qənaətindədir:** “Ümid etmək istərdim ki, bu, məqsədli yayındırmalar deyil. Şəxsən mən heç vaxt buna rast gəlməmişəm ki, AzadlıqRadiosunda hansısa məhdudiyyətlər tətbiq olunub. 2002-2003-cü illərdən bu radio ilə müntəzəm əməkdaşlıq edirəm. Heç zaman hansısa açıqlamalarıma məhdudiyyət tətbiq olunmayıb”. **Politoloq radionun keçmiş rəhbəri Cefri Gedminlə görüşünü də xatırladı:** “Radionun efirində elə o zaman da ən tənqidi çıxışlar edən şəxslərdən biri mən idim. Cefri Gedmin də əməkdaşlıqda maraqlı olduğunu nümayiş etdirirdi. O, bütövlükdə radionun rəhbəri idi. Bakı bürosunun fəaliyyətinə qiymət vermək üçün radionun Rusiya, yaxud Ermənistan xidmətinin saytlarına baxmaq kifayət edər. Ona görə də məhdudiyyətlərlə bağlı fikirlər mənə təəccüblü gəldi. Mətbəxin içində olmasam da, orda daimi ekspertlərdən biri olaraq şəxsən mən belə şeylər görməmişəm”.



**Ərəstun Oruclu:** “ABŞ-da Azərbaycan hakimiyyətinin Vaşinqtona qarşı apardığı kampaniyaya adekvat reaksiyalar başlanıb”



**Siyavuş Novruzov:** “Öz yolumuzla davam edəcəyik, istəyir onların xoşuna gəlsin, istəyir gəlməsin”

**Ə.Oruclu Azərbaycan-ABŞ münasibətlərinin 2015-ci ildə hansı istiqamətdə cərəyan edəcəyi barədə təxminlərini də bölüşdü:** “Təsadüfi deyil ki, bu gün artıq ABŞ-dakı kifayət qədər nüfuzlu mediada Devid Kramerin, Cefri Gedminin məqalələri dərc olunur. Bu məqalələr kifayət qədər nüfuzlu nəşrlərdə, ən oxunaqlı qəzet olan ”Vaşinqton Post"da əksini tapır. Bu, artıq göstərir ki, ABŞ-da Azərbaycan hakimiyyətinin Vaşinqtona qarşı apardığı kampaniyaya adekvat reaksiyalar başlanıb. Əslində biz bunu proqnozlaşdırmışdıq ki, anti-Amerika xətti sonsuzluğa qədər davam edə bilməz və hər hansı bir məqamda adekvat reaksiyalar doğuracaq. Artıq biz bu reaksiyaların ilkin əlamətlərini görməyə başlayırıq. Nəzərə alaq ki, yanvarın 12-də Vaşinqtonda Azərbaycanla bağlı ekspertlər səviyyəsində dinləmələr olacaq. Bu ərəfədə belə məqalələrin dərc olunması, bu cür mövqelərin ifadə olunması şəraitində istisna etmirəm ki, həmin ekspert müzakirələri sonda ictimai rəyə, media vasitəsilə ABŞ hakimiyyətinə tövsiyələr verə bilər ki, Azərbaycan hakimiyyətinə qarşı müəyyən sanksiyalar tətbiq olunmalıdır. Əgər bu istiqamət götürüləcəksə, münasibətlərin perspektivi aydındır. Amma rəsmi Bakının ABŞ-a yönəlik sərt xətti, təbliğatı fonunda Vaşinqtonun Bakı ilə danışıq aparacağı inandırıcı görünmür". **Politoloq AzadlıqRadiosunun bağlanmasından cəmi 4 gün əvvəl ABŞ dövlət katibi ilə prezident İ.Əliyev arasında telefon danışığı olduğunu qeyd etdi:** “Bundan 4 gün sonra radionun bağlanmasından nəticə çıxartmaq olar ki, o telefon danışığı hansı tonda, hansı məsələlər ətrafında olub. Digər tərəfdən isə bəzi KİV-lər bunu Azərbaycan cəmiyyətinə Bakı ilə Vaşinqton arasındakı gizli sövdələşmə kimi təqdim edir. Bu, Azərbaycan əhalisini axmaq yerinə qoymaqdır. Guya ABŞ hökuməti Azərbaycanla anlaşmaya gedib ki, ”siz AzadlıqRadiosunu da bağlayın, eybi yoxdur, əsas odur ki, strateji xətti qoruyub-saxlayasınız". Bu, ağ yalan, primitiv, çox səviyyəsiz yalandır. Artıq rəsmi Bakı sanksiyalar ərəfəsindədir. Bu təbliğat kimə lazımdır və bunun verəcəyi effekt kimə lazımdır, şəxsən mənə çatmır".

**İki paytaxt arasındakı gərginliyin səbəblərinə gəldikdə, Ə.Oruclu bunları bildirdi:** “Rəsmi Bakının xarici siyasət kursunda rusiyapərəst çalarların güclənməsi, Azərbaycan- Türkiyə-Rusiya birliyinin formalaşması istiqamətində səylər bu reaksiyanı doğurdu. Həm də insan haqları ilə bağlı bizə Vaşinqtonun, Brüsselin dəyərləndirməsi lazım deyil. Məgər biz bilmirikmiki Azərbaycanda insan haqları hansı səviyyədədir? Əgər ölkənin bütün vətəndaş cəmiyyəti fəalları həbsxanadadırsa, aparıcı jurnalistlər tutulursa, mənə nə Vaşinqton, nə Brüsselin rəyi vacib deyil. Heç Marsdan gələnlərin də rəyi lazım deyil. Biz burda yaşayır və reallığı görürük. Əgər Azərbaycanda siyasi partiyalar, KİV-lər sıradan çıxarılırsa, ayrı-ayrı fərdlər fərqli siyasi düşüncəsinə görə təqib olunursa, kiminsə nə deməsi vacib deyil. Azərbaycan hakimiyyəti bundan nəticə çıxartmalıdır. Çıxarmasa, nə daxili, nə xarici siyasətdə uğura aparan yol olmayacaq”. Ancaq Ə.Oruclu güman etmir ki, Avropa Yay Oyunlarının boykotu dövlətlər səviyyəsində reallaşa bilər: “Amma Avropa Oyunları ən yaxşı halda dünyada Avrovizion effektini verəcək”.

**YAP-çı deputat, icra katibinin müavini Siyavuş Novruzov isə D.Kramerin fikirlərinə reaksiyasında öncə ABŞ Konqresinin işgəncə faktları ilə bağlı 6 min səhifəlik dosyeni ortaya çıxardığını xatırlatdı:** “Onlar da etiraf ediblər ki, insanlara terrorun qarşısını almaq üçün işgəncə veriblər. Yəni ABŞ-ın təhlükəsizlik sistemi terror qorxusu yarananda özünün fundamental prinsiplərindən də kənara çıxır. Belə olan halda ərazisinin 20 faizi işğal olunan, mütəmadi olaraq Ermənistan və digər dövlətlərin diversiya təhdidləri ilə üzə-üzə qalan, metrosunda terror hadisələri baş verən Azərbaycanı bir radioya görə ittiham etmək düzgün deyil. Bu radio ilə bağlı da söz, fikir azadlığı ilə bağlı yox, bu və ya digər cinayət hadisələri ilə əlaqədar istintaq hərəkətləri aparılır. İstintaqın getdiyi zamanda belə bir bəyanatın verilməsinin özü qanunaziddir, insan hüquqlarının pozulmasıdır. Necə olur ki, Amerika öz təhlükəsizliyinin qayğısına qala bilər, biz yox?” **S.Novruzov rəsmi Bakının ABŞ-a həmişə isti münasibət göstərdiyini bildirdi:** “Azərbaycan antiterror əməliyyatlarında iştirak edib. Silahlı Qüvvələrimizin nümayəndələri İraq, Kosovoda, Əfqanıstandakı proseslərdə iştirak edib, digər strukturlarda əməkdaşlıq davam edir. Belə olan halda adi bir radioya görə bizə qarşı necə şübhəli ittiham irəli sürə bilərlər?” **YAP-çı deputat Azərbaycanın İranla 765 km, Ermənistanla 733 km-i işğal altında olan 1007 km, Gürcüstanla 400 km, Rusiya ilə 390 km sərhədinin olduğunu xatırlatdı:** “Bu dövlətlərdə müxtəlif hadisələr baş verir. Ona görə də təhlükəsizliyimiz, dövlət müstəqilliyimiz hər şeydən öndədir. O baxımdan nə qərar vermələrindən asılı olmayaraq milli maraqlarımız, dövlətimiz, vətəndaşımız, ölkəmizin təhlükəsizliyi naminə prinsiplərimizdən geri çəkilməyəcəyik. Bu gün Azərbaycanı ”sabitlik adası" adlandırırlar, öz yolumuzla da davam edəcəyik. İstəyir onların xoşuna gəlsin, istəyir gəlməsin".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 1 (6029) 6 yanvar 2015



# "Üzü məndən niyə döndü?"

**Samir SARI**

**Sürücülük sənətinin, şair demişkən, türfə əlamətləri var, biri də budur ki, içdinsə, gərək maşın sürməyəsən, maşın sürəcəksənsə, içməyəsən. Belə eləsən, qulağın dinc, başın salamat olar.**

Təvazökarlıqdan BDYPİ-nin Badamdardakı baş ofisi qədər uzaq olsa da, deməliyəm ki, özüm məhz elə edirəm.

Olur ki, şənliklərdə dostlar direşir, "50 qramdan bir şey olmaz, iç, kefin açılsın" deyirlər, deyirəm, yox. Yekə-yekə "yol polisindən qorxma, mənlikdir, iç" deyənlər də olur, yenə "yox" deyirəm. "Gecənin bu vaxtında yollar da boş olur, sürüb gedəcəksən" deyənlərə də bir cavabım var: "Olmaz". Amma elə də olur ki, içki reklamı kimi çıxmasın, vazkeçilməz içki (lordlar içəndən) növü təklif olunanda dadına baxıram, onda da evə ya pay-piyada, ya da ayıq sürücü ilə gedirəm. Başqa variant yoxdur.

Ayın 4-də də elə oldu. İsrarlara baxmayaraq, içmədim. "Neolit" restoranının yanıyla irəliləyib "Koroğlu" metrostansiyasının önünə aparan körpünün dairəsində yol polisləri meqafonla "sağa çək, saxla" dedilər. Saxladım. Polis əməkdaşı yaxınlaşdı. Mən də təhlükəsizlik kəmərimi açıb düşdüm. Yol polisi kamali-ədəblə özünü təqdim etdi və mənim saxlanma səbəbimi bildirdi: "İçkili vəziyyətdə avtomobil idarə edənlərə qarşı reyd keçiririk". Kefiköklüklə dedim, çox gözəl, elə indicə toydan çıxıram. Yol polisi xüsusi alkometr cihazını uzatdı, ovurdlarını şişirdərək necə üfürməyin nümunəsini də göstərib dedi: "Bir bura üfür". Yol polisinin gözlərinin dərinliyində tilovuna balıq düşmüş balıqçı ifadəsi vardı.

Xülasə, cihaza üfürdüm. Yol polisi cihazına baxdı, sanki gözlərinə inanmadı, işığa tutub bir də baxdı, sonra mənim üzümə baxmadan, bir kəlmə söz demədən, pərt sifətlə, umsuq olmuş şəkildə yeriyib 3 metr qabaqda saxlanmış xidməti maşınına oturdu və sürücüsünə nə dedisə, o da acıqlı halda, üstəlik, yol hərəkəti qaydalarını kobudcasına pozaraq geriyə döndü, bayaqkı pusqu yerlərinə qayıtdı.

İndi bu sətirləri yazmaqla həmin yol polislərini qınamaq fikrində deyiləm. Hesab edirəm ki, çox düz eləyirlər, içkili sürücülərə qarşı reydləri hər gün, həm də saat 8-dən gecə saat 12-yə qədər aparmaq lazımdır. Bu, xeyli insan həyatını xilas edə bilər. Çünki gözümün şahidiyəm, toya öz maşını ilə gələn sürücülərin təxminən 70 faizi spirtli içki qəbul edir. Onların sırasında təxminən 3-5 faizi sükan arxasına güclə oturacaq qədər içir və maşınlarının açarını ciblərindən birtəhər eşələyib tapsalar da, öz açarlarını itmiş vəziyyətdə olurlar. Əgər şans üzlərinə gülsə evə sağ-salamat yetişirlər, özləri kimi birinə rast olsalar, srağagün qəza törətmiş kürdəmirli balasının dediyi kimi, təpə-təpəyə toqquşurlar, qanqaraçılıq olur.

Bununla belə, açığı, yol polisi pərt-pərt maşınına oturub gedəndə mən də pərt oldum. Belə gözləmirdim. Polisdən iki cür gözləntim vardı. Bəd halda yol polisinin bu nəticə ilə razılaşmayaraq, "yenidən üfür" deməsini, ya da, "dairəni düz dönmədin, soldan gəlen maşına yol verməliydin" deyə irad bildirməsini gözləyirdim, amma o cür üzgün halda, heç nə demədən avtomobilinə tərəf getməsini gözləmirdim.

Pozitiv planda isə gözləyirdim ki, yol polisi toyda olmuş, amma məsuliyyətli davranaraq, bir qurtum da olsa, spirtli içki qəbul etməmiş intizamlı sürücünü təqdir edəcək, "keşkə hamı sənin kimi olaydı, yaxşı yol" deyəcək. Düzdür, o, qanunla bunu deməyə borclu deyil, amma məncə, cihaza üfürməyin nəticəsinin necə olduğu barədə mənə hər hansı bir işarə etməliydi, ən azı, sağollaşıb, yola davam etməyimə icazə verməliydi.

Elə çıxa bilər ki, adi yol hərəkəti qaydalarına riayət etməyimlə yol polisinə minnət qoyuram. Əsla. Ona qalsa, bir dəfə yanımda bir sürücü yol polisinə "mən gecə saat 2-də də kəmər taxıram" dedi, o da belə cavab verdi: "Nəyimə lazımdır? Öz təhlükəsizliyin üçün taxırsan".

Həmin yol polisi, əlbəttə ki, düz deyirdi. Sükan arxasına oturarkən spirtli içki içməmək də, təhlükəsizlik kəmərini taxmaq da, sürəti artırmamaq da sırf sürücülərin salamatlığı üçündür, bunu yol polisinə yaxşılıq edibmiş kimi səciyyələndirmək olmaz.

Ancaq mənim vaqiəmdə də vəziyyət beləydi: axı mən də toyda içməməklə yol polisinə pislik etməmişdim. O isə özünü məndən küsübmüş kimi apardı.

# İsmayıllı hadisələrində adı hallanan Vüqar Ələkbərov sükutu pozdu

## "Sabiq nazirin oğlunun açıqlaması gülüncdür"

**2013-cü ilin yanvarında İsmayıllıda baş vermiş hadisələrdə adı hallanan - o dövrkü əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərovun oğlu - Vüqar Ələkbərov iki illik sükutu pozub. İndiyə qədər mediadan uzaq dayanan, ona məxsus "Çıraq" hotelinin yandırılması, əmisi - həmin vaxt İsmayıllının icra başçısı olan Nizami Ələkbərovun, atası Füzuli Ələkbərovun vəzifə karyerasına son qoyan, çoxlu sayda insanın həbsi ilə nəticələnən İsmayıllı hadisələri haqda danışmayan Vüqar Ələkbərov virtualaz.org saytına geniş müsahibə verib.**

**Hazırda atasının yaratdığı "İmprotex" şirkətinin vitse-prezidenti olan Vüqar Ələkbərov deyib:** "İsmayıllı hadisələri baş verən günlərdə mənim üçüncü oğlum doğuldu. Yanvarın 24-də mən xəstəxanada idim və oğlumun doğulacağını gözləyirdim. Başa düşürsünüzmü, mən həmin gün İsmayıllıda deyildim. Qəzetlərin yazdıqlarının heç biri düz deyildi, yalan idi. Həmin gün mən Nardarandakı "Sea-breeze" istirahət mərkəzində idim. Uşaqlarla, dostlarımla orada dincəlirdim. Birdən uşaqlardan kimsə həyəcanlı səslə məni çağırdı: "Vüqar, televizorda sənin hotelini göstərirlər. Onlar "Çıraq" hotelini yandırdılar..." İsmayıllıda heç kimə pisliyim dəyməyib. Bacardığım qədər hamıya kömək etmişəm. Özü də təkcə mən yox, bütün ailəmiz belə olub. Ona görə də bu hadisə məndən ötrü əsl şok effektli idi. Hər gün dünyada müxtəlif insanlar arasında yüzlərlə, minlərlə mübahisələr olur, hansısa anlaşılmazlıqlar yaşanır. Ayrı-ayrı adamlar arasındakı bu münaqişələrin hər birindən sonra bəyəm qiyam başlayır? Adamlar məgər gedib hotelləri və maşınları yandırırlar? Bu, nə cəfəngiyyatdır?! Bəli, iki maşın toqquşmuşdu, yol qəzası olmuşdu. Hə, nə olsun?! Bundan ötrü bəyəm barrikada qurarlar?"

**"Əgər kütləvi narazılıq üçün heç bir ciddi səbəb yox idisə, onda minlərlə adam yerli hakimiyyətə qarşı niyə üsyan edirdi" sualına V.Ələkbərov belə cavab verib:** "Xatırlayırsınızsa, həmin il prezident seçkiləri ili idi. Çoxsaylı xarici qüvvələr ölkəmizdə vəziyyətin gərginləşməsində, sabitliyin pozulmasında maraqlı idi. Guya təkcə İsmayıllı hadisələri idi? Bəs Qubadakı iğtişaşlar? Bəs "Binə"dəki hadisələr? Bəs bir əsgərin ölümündən ötrü Bakının mərkəzində "facebook inqilabı" cəhdi? Əminəm ki, İsmayıllı hadisələrinin arxasında xarici qüvvələr və müxalifət dayanırdı. Sonrakı həbslər də mənim bu dediklərimi təsdiqlədi".

**V.Ələkbərov hadisələrə görə xarici qüvvələri və müxalifəti günahkar elan etdikdən sonra bildirib ki, həbs olunan şəxslərə görə təəssüflənir:** "Onları sadəcə çətin vəziyyətə saldılar. Onlar böyük siyasi oyunların qurbanı oldu. Bunu məhkəmədə də açıq dedim".

**Sabiq nazir oğlu özünü rayonda saymazyana və harın apardığı haqda yayılan söhbətlərin yalan olduğunu deyib:** "Yalandır. Doğrudur, mən İsmayıllıya tez-tez gedirdim, orada ova çıxırdıq. Meşədə balaca bir vaqon qoymuşduq. Ovdan qayıdandan sonra orada yaşayırdıq. Amma sonralar qəzetlər yazdı ki, mən meşədə guya böyük bir malikanə tikdirmişəm. Yaxşı, belədirsə, gəlin gedək o vaqonu sizə də göstərim. Nə malikanə? Bunlar nədən danışır? Atamın İvanovka kəndində balaca bir evi var. Amma o evi hələ "İmprotex"in rəhbəri olanda tikdirib".

**V.Ələkbərov İsmayıllıda saraylarının olduğu haqda deyilənləri də təkzib edib:** "Ümumiyyətlə, bizim ailədən heç kim saray tikdirməyib. Biz belə yaşamağa öyrəşməmişik, başqa cür tərbiyə olunmuşuq. Əmimi İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı təyin edəndən sonra o, rayonun keçmiş məmurlarından birinin evini satın aldı. Çox adi, sadə bir kənd evidir. Haqqımızda bilirsinizmi nə qədər rəvayət danışdılar?! Ən pisi odur ki, mənim "Çıraq" hotelini guya fahişəxanaya çevirdiyimi yazmışdılar. Söhbət hansı pritondan, hansı fahişəxanadan gedirdi? Bizim müxtəlif qurumlarla, o cümlədən Gənclər və İdman Nazirliyi ilə müqavilələrimiz vardı. Bu müqavilələrə görə, təlim-məşq toplanışları vaxtı idmançılar bizim hoteldə qalırdılar. Elə olurdu ki, Bakıdan, digər şəhərlərdən, hətta xarici ölkələrdən gələn idmançı qızlar şortikdə çıxıb hotelin ətrafında, meşədə Olimpiya-İdman Kompleksinə qədər qaçırdılar. Bu qızlar barədə bilirsinizmi nə qədər dedi-qodu yayırdılar?! Əgər mentalitetimiz belədirsə, mən ona edə bilərdim?"

**V.Ələkbərov o dövrdə İsmayıllının icra başçısı olan əmisi Nizami Ələkbərovun uşaqlarının rayona tez-tez gəlib-getmədiyindən də danışıb:** "Onlar rayona demək olar ki, gedib-gəlmirdilər. Onlar atalarının yanında cəmi bir neçə dəfə qonaq olmuşdular. Mənə inanmasanız, İsmayıllıya gedin, camaatdan soruşun. Mən İsmayıllıya öz "BMW" maşınımda gedir, sonra isə "Niva"ya minib gəzirdim. Ova da, işlərimin dalınca da "Niva"da gedirdim. Digər tərəfdən, dünyanın hotel biznesi sahəsində ixtisaslaşan ən yaxşı universitetlərindən birini bitirmişəm. Məgər mənə yaxın olan bir sahədə öz biznesimi yaratmaq hüququm yox idi? Mən bununla hansı yazılmış və yazılmamış qanunları pozmuşam? Haqqımda deyilənlərin hamısı uydurma və cəfəngiyyatdır. Məni düzgün başa düşün, sadəcə olaraq, lazımi zamanda və məkanda deyildik. Bütün günahımız da bundadır. Müəyyən qüvvələr ölkədəki sabitliyi pozmağı planlaşdırmışdılar. Ən qaynar nöqtələrdən biri kimi İsmayıllı seçilmişdi".

**Sabiq nazirin oğlu hazırda əmisi Nizami Ələkbərovun da "İmrotex" şirkətində işlədiyini qeyd edib:** "Biz bu gün yenidən "İmprotex" şirkətində birləşmişik. "İmprotex" bizdən ötrü ailə deməkdir. Ona görə də biz heç nəyə baxmadan yaşamaqda və işləməkdə davam edirik. Məndən ötrü ən əsas məsələ şərəf və ləyaqəti qorumaqdır. Mən elə bir iş tutmamışam ki, sonradan haçansa uşaqlarımın qarşısında utanım. Və mən çox istəyərdim ki, atamın 90-cı illərdə başladığı işləri davam etdirim. Yalnız bu arzu ilə yaşayıram..."



Vüqar Ələkbərov

**Vidadi Həmidli: "Həmin hadisə Vüqar Ələkbərovun adamları kimi tanınan şəxslərin taksi sürücüsünü söyüb təhqir etməsi, sonra isə bütün İsmayıllı camaatının ünvanına söyüş söyməsi nəticəsində baş vermişdi"**

**Müsavat Partiyası İsmayıllı Rayon Təşkilatının sədri Vidadi Həmidli Vüqar Ələkbərovun İsmayıllı hadisələrində müxalifətin əlinin olduğunu söyləməsinə münasibət bildirib. Vidadi Həmidli "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, iki il öncə İsmayıllıda baş verən məlum hadisələrdə müxalifət qüvvələrinin zərrə qədər də rolu, iştirakı olmayıb. Vüqar Ələkbərovun bu hadisələri müxalifətin üzərinə yükləmək cəhdi absurd və gülüncdür:** "Bütün rayon əhalisi bilir ki, hadisələrdə müxalifətin rolu yox idi. Həmin hadisə Vüqar Ələkbərovun adamları kimi tanınan şəxslərin taksi sürücüsünü söyüb təhqir etməsi, sonra isə bütün İsmayıllı camaatının ünvanına söyüş söyməsi nəticəsində baş vermişdi. İsmayıllı camaatı mənəviyyatlı, tərbiyəli camaatdır. Camaat onu söyənləri cəzalandırmaq üçün ayağa qalxmışdı. Burada müxalifət-filan söhbəti olmayıb və ola bilməz. Camaatı söyüb o hadisələrə səbəb olan şəxslərin içərisində şəxsən Vüqar Ələkbərovun iştirak etdiyi haqda o vaxtlar rayonda söz-söhbət yayılmışdı. Söz-söhbət olduğu üçün də mənim əlimdə sübut yoxdur ki, Vüqar Ələkbərovun şəxsən orda olduğunu qeyd edim. Mən sadəcə olaraq camaat arasında Vüqarın da söyən adamlardan biri olduğu haqda söhbətlər eşitmişdim. Amma əlimdə fakt olmadığı üçün deyə bilmərəm ki, Vüqar da orada olub. Ancaq söyən şəxslərin onların adamları olduğu dəqiqdir".

**V.Həmidli onu da bildirdi ki, Müsavat Partiyası başqanının müavini Tofiq Yaqublunu İsmayıllı hadisələrinin bəhanə edib həbsə atıblar:** "Tofiq bəy İsmayıllıya gələndə artıq o hadisə baş vermişdi və sakitlik idi. Tofiq Yaqublu bir jurnalist kimi hadisə baş verən yerə gəlmişdi və tez də qayıdıb getmişdi. Onun həmin hadisələrlə heç bir əlaqəsi yox idi. Təəssüf ki, İsmayıllı hadisələrini bəhanə edib onu tutdular".

**V.Həmidli V.Ələkbərovun İsmayıllıda malikanələrinin, mülklərinin olmadığı haqda dediklərinin də doğru olmadığını bildirdi:** "Tamamilə yalan deyir. İsmayıllıda ən iri obyektlər, torpaq sahələri, çoxlu sayda malikanələr onların idi. İndi də onlarındır. Bunu rayonda hər kəs bilir. İsmayıllı camaatının çörəyini yeyib sonra onu təhqir etdilər. Mənə təəccüblü gələn odur ki, Vüqar Ələkbərov niyə o hadisələrdən iki il sonra çıxıb mediada belə geniş danışıb".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 1 (6029) 6 yanvar 2014

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Azərbaycan dövləti üçün köhnə ilin ən ağır yüklərindən biri şübhəsiz ki, daha bir il həllini tapmadan növbəti ilə adlayan Dağlıq Qarabağ problemi oldu. Təzə ilə köhnə, 25 ilin problemi ilə girdik. Bu isə o deməkdir ki, təkcə Azərbaycan və Ermənistan deyil, ümumən Güney Qafqaz regionu da özünün iqtisadi vahid kimi sürətli inkişafı önündə əsas maneəni götürməkdə bir qiymətli ilini də itirdi. Qazanan isə təbii ki, bu münaqişənin qalmasında ən çox maraqlı olan Rusiya oldu.**



# 2015-ci ilə bağlı kövrək Qarabağ gözləntiləri

## ATƏT-in təzə sədri prioritetin Qarabağ yox, Ukrayna məsələsi olacağını anons etdi; ekspertlər də sıçrayışa ümid bəsləmirlər; situasiyanı dəyişmək vəzifəsi yenə Bakının üzərində qalır...

Yanvarın 1-dən Serbiya ATƏT-ə bir illik sədrliyi rəsmən İsveçrədən qəbul edib. Serbiyanın xarici işlər naziri İviç Daçiçin sözlərinə görə, təşkilatın ilk tədbiri ATƏT Daimi Şurasının yanvarın 15-nə təyin edilən iclası olacaq. Maraqlıdır ki, XİN başçısı ölkəsinin təşkilata sədrliyi dönəmində əsas prioritet məsələnin Ukrayna böhranı olacağını söyləyib. Demək, Qarabağ məsələsi bu il də ATƏT-in Minsk Qrupu üçün beynəlxalq birliyin xüsusi diqqət mərkəzində qalmayacaq.

*****

**Bəs əcnəbi təhlilçilər 2015 barədə nə düşünürlər?**

**Amerikalı ekspert Piter Teys:** "2015-ci ildə yarana biləcək dördtərəfli Azərbaycan-İran-Rusiya-Türkiyə strateji əməkdaşlığı Qarabağ münaqişəsinə Bakının maraqlarına uyğun surətdə müsbət təsir edəcək. Ümid edirəm ki, Ermənistan 2016-cə ildə bölgənin qonşu ölkələrin qatıldığı infrastruktur və digər strateji layihələrinə reinteqrasiya edəcək. Azərbaycan və Ermənistan hökumətləri arasında formal yox, məzmunlu danışıqların təmin edilməsi beynəlxalq birlik üçün həqiqi məqsədə çevrilməlidir. Hədəf isə situasiyanı dalandan çıxaracaq və işğal altındakı ərazilərində Ermənistanın təlimlər keçirməsi kimi təxribatçı hərəkətlərini önləyəcək qərarların işlənməsi olmalıdır".

**Alman ekspert Hans Qutbrod:** "Bir çox faktorlar səbəbindən hansısa təxminlər söyləmək həmişə çətindir. Mənim fikrimcə, Güney Qafqazın hər üç ölkəsi öz daxillərində alternativ səslər üçün şərait yaradılması yönündə çalışmalıdır. Bundan əlavə, ümid edirəm ki, bölgə dövlətləri həyat və fəaliyyət üçün cəlbedici şəraitin yaradılması uğrunda yarışacaq, nəinki öz qüdrətlərini qabarmağa çalışacaqlar. Funksional demokratiyalar arasında sülh daha uzunmüddətlidir".

*****

**Rusiyalı ekspert Aleksandr Karavayev:** "Nizamlama alınmasa da, heç olmasa İrəvan tərəfindən üçlü, yəni Bakı-İrəvan-Moskva formatında güzəştlər qarşılığında yaxınlaşma, əlaqələrin normallaşması tam mümkündür. Təbii ki, Türkiyənin köməyi ilə, çünki bu ölkə Güney Qafqazda nüfuzlu oyunçudur. Belə qüvvələr nisbəti ilə prinsipcə münaqişənin düyününü 80-90-cı illərdə onun başladığı səviyyədə açmağa başlamaq olar. Ən əsası, Moskva üçün bu, özünün-külər arasında olan konfliktdir - o ölkələr arasında ki, onlarla Kreml regional miqyasda olduqca sıx və mühüm əlaqələrə malikdir. Ona görə də Moskva vəziyyətin kəskinləşməsinə seyrçi münasibətdə olmayacaq və ya əksinə, situasiyanı tamamən özbaşına buraxmayacaq. Yeri gəlmişkən, Putinin bölgəyə artan diqqəti bununla bağlıdır. Belə bir diqqət ötən ilin avqustunda təmas xəttində yaranmış böyük gərginlikdən sonra reallaşmış prezidentlərin Soçi görüşündə özünü büruzə verdi. Bu, onun göstəricisidir ki, Rusiya vəziyyəti nəzarət altında saxlayır. Ancaq bu düyünü necə açmaq barədə hansısa qərarlar da hələlik yoxdur".

*****

**Rusiyalı politoloq Aleksandr Markarova görə, ötən ilin sonu üçün il ərzində əldə edilən bütün pozitiv məqamlar sıfırlanıb:** "Hazırda biz nə hərb, nə də sülh vəziyyətinə sahibik. Müharibə nöqteyi-nəzərdən il kifayət qədər uğursuz oldu. Sülh nöqteyi-nəzərdən isə danışıqlar prosesi əvvəlki illərdə hansı səviyyədə idisə, o səviyyədə də qaldı. 2015-ci ildə nizamlama üzrə məhsuldar alternativ ssenarilərin axtarışına həsr olunacaq. Böyük ehtimalla, sülh prosesi mövcud sənədlər əsasında davam edirləcək. Lakin tərəflərin bir-birinə diametral zidd mövqeləri hesaba alınarsa, o zaman problemin həlli hamını qane edəcək alternativ təkliflərin axtarışı müstəvisindədir. Bütövlükdə irəliyə doğru yalnız təmas xəttində gərginliyin azalmasına yardımçı olacaq hansısa kiçik addımları gözləmək lazım gəlir. Yeni ildə dinc Qarabağ nizamlanmasına nail olmaq kifayət qədər mürəkkəb görünür".

*****

**Cənubi Qafqazda münaqişələrin yaranması əsasının 1920-ci ildən qoyulduğunu bildirən rusiyalı təhlilçi və ekspert Stanislav Tarasov Rusiyanın mövqe dəyişdirdiyini bildirib (axar.az). Onun sözlərinə görə, Ukrayna böhranı ilə bağlı Qərblə yaranan problemdən sonra Kreml Şərq ölkələri, o sırada Yaxın Şərq və Cənubi Qafqazda öz maraqlarına diqqət ayırmağa başlayıb və bu üzdən də Qarabağda müharibə ocağının yenidən alovlanması üçün şərait yaranıb:** "Cənubi Qafqazda yenidən genişmiqyaslı əməliyyatlar başlana bilər. Qarabağ hadisələrin episentrinə çevrilir və bu, Rusiyanın günahı üzündən baş vermir. 2008-ci il Qafqaz müharibəsi və 2014-cü il Ukrayna böhranı münaqişələrin nizama salınmasını tələb edir. Cənubi Osetiya və Abxaziyada münaqişələrin başlanması mümkün deyil. Regional partlayış Qarabağda baş verə bilər və silahlı konflikt yalnız Qarabağda mümkündür".

*****

**Rusiyalı analitik və politoloq Qriqori Trofimçuk (*vesti.az*):** "2014-cü ili Güney Qafqaz üçün uğurlu saymaq mümkündür, çünki Ukrayna böhranını nəzərə alsaq, bölgə açıq müharibəyə hələ ki, tuş gəlmədi. Başqa yandan, ötən il son dövrün ən ciddi, Qarabağ ixtilafının donunun açılmasına



cəhd ili kimi yadda qaldı, hansı ixtilafı ki, əvvəlki az-çox sakit məcrasına qaytarmaq daha mümkün olmayacaq. Ancaq unutmaq lazım deyil ki, Cənubi Qafqazda təkcə Qarabağ problemi mövcud deyil. Problemli nöqtələrin sayı minimum 10-dur və onları kənar "bədxahlar" istənilən an partlada bilər. Məhz elə bu zonalar ən təhlükəlidir, nə qədər ki, bütün nəzərlər adət üzrə Qarabağa yönəlib".

**Ekspertin əminliyinə əsasən, Qarabağda sabitliyin pozulması xeyli dərəcədə münaqişə tərəflərinin davranışlarından asılı olacaq:** "Əgər onlar özlərini trivial aparmasalar - hansını ki, heç kəs onlardan gözləmir - o zaman situasiyanı özləri nəzarətdə saxlaya biləcəklər. Dəfələrlə dediyim kimi, Azərbaycan və Ermənistan prezidentlərinin cəmi bircə dəfə - ən yaxşısı da Qarabağda - üzbəsurət, "bağlı qapılar arxasında" görüşməsi kifayətdir ki, bu sensasiyadan bütün dünya danışsın. Əgər analoji addımlar, yaxud buna kimi olan ənənəvi analoji addımlar atılmasa, Qarabağ yenidən müharibə həddinə yaxınlaşacaq və gah İrəvan, gah da Bakı suçlu sayılacaq. Belə bir durumda, Ermənistan, nə də Azərbaycan dünyaya haqlı olduqlarını sübut edə, öz mövqeyini müdafiə edə bilməyəcək, çünki aparıcı dünya KİV-lərini onlar idarə eləmir. Qarabağ zonasında vəziyyətin hər növbəti kəskinləşməsi əvvəlkilərdən daha güclü olacaq ki, ictimai fikri həyəcanlandırmaq və onu gərginlikdə saxlamaq mümkün olsun".

**Analitik hesab edir ki, Rusiya sarıdan bu mənada hər hansı dəyişiklik olmayacaq:** "İndi Kremldən ötrü ən önəmlisi "təki müharibə olmasın" məşhur prinsipi üzrə mövcud situasiyanı saxlamaqdır. İstisna deyil ki, beynəlxalq vəziyyətin sürətlə pisləşməsi ilə əlaqədar hansısa bəyanatlar olsun, ancaq bundan artıq - heç nə. Sülh üçün böyük bir uğur ola bilər, əgər 2015-ci ildə daha bir, hətta bir neçə müharibə başlamasa. Axı az qala, indi hər il belə müharibələr gətirir. 2014-cü il tarixə Ukraynada müharibə ili kimi daxil oldu, necə ki, 2011 Liviya müharibəsi kimi düşdü".

*****

**Ekspertlərin rəy və proqnozlarından belə qənaət hasil olur ki, 2015-ci ildə də beynəlxalq güclərin Qarabağla bağlı əsas narahatlığı status-kvonu qoruyub saxlamaq və hərbi əməliyyatların qızışmasını əngəlləməklə ilgili olacaq. Demək, situasiyanı dəyişmək vəzifəsi yenə də ilk növbədə Bakının üzərində qalır...**

# "Türkiyə ilə münasibətləri dalana salan Sərkisyandır..."

## Erməni siyasətçisi: "Bu prosesdən uduşda Türkiyə və Azərbaycan, bir də o ölkələr oldu ki, sərhədlərin bağlı qalması onlara sərf edir..."



**"Serj Sərkisyan erməni-Türkiyə münasibətlərini metodik və ardıcıl şəkildə dalana salıb". Musavat.com erməni KİV-ə istinadən xəbər verir ki, belə bir açıqlama ilə müxalif Ermənistan Milli Konqresinin Xarici əlaqələr komissiyasının sədri Vladimir Karapetyan çıxış edib.**

Onun sözlərinə görə, Sürix protokollarının imzalandığı 2009-cu ildə Sərkisyanın avantürizmi dövlət təbliğatına çevrilsə də, Ermənistan prosesdən heç nə uda bilməyib. "Uduşda Türkiyə və Azərbaycan, bir də o ölkələr oldu ki, sərhədlərin bağlı qalması onlara sərf edir", - deyə siyasətçi vurğulayıb.

"Bu dalan - Serj Sərkisyanın rəqiblərimizə hədiyyəsidir və şüurlu şəkildə edilən fiaskoya görə 2009-2011-ci illərdə bu təşəbbüsü tərifləyənlər cavab verməlidir və verəcək" - əlavə edib müxalifət yetkilisi.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 1 (6029) 6 yanvar 2015



# Bakı yenidən sərt tənqidlər xəttində

Azər RƏŞİDOĞLU

**Bakı, deyəsən, Qərblə bütün körpüləri yandırır. Hakimiyyətin son zamanlar atdığı bütün addımlar sanki Qərbi narazı salmağa yönəlib. Təsadüfi deyil ki, qısa müddətli fasilədən sonra nüfuzlu Qərb mətbuatı yenidən Azərbaycan hakimiyyətini kəskin tənqid atəşinə tutmağa başlayıb. Hakimiyyətin son addımlarını ABŞ-a birbaşa meydan oxumaq adlandıran Qərb analitikləri belə hərəkətlərin nəticəsiz qalmayacağını ehtimal edirlər.**

"Freedom House"un sabiq prezidenti, hazırda Vaşinqtondakı McCain institutunun baş direktoru olan Devid Kramer Azadlıq Radiosunun Bakı ofisinin möhürlənməsini kəskin tənqid edib. ABŞ Konqresi tərəfindən maliyyələşdirilən media qurumu olduğunu xatırladan müəllif radionun əməkdaşı Xədicə İsmayıl da daxil olmaqla Azərbaycanda hüquq müdafiəçiləri və ictimai fəalların saxta ittihamlarla həbsini sərt tənqid atəşinə tutub. Azərbaycanda getdikcə güclənən anti - Amerika ritorikasını qeyd edən müəllif Prezident Administrasiyanın şöbə müdiri Novruz Məmmədovdan sitat gətirir, onun ABŞ-ın ATƏT səfirinə qəzəbli cavabında ABŞ-ı "Korrupsiya və zorakılığın beşiyi" adlandırdığını yazır. D.Kramerin fikrincə, Azərbaycanda baş verənlər ABŞ- a qarşı "çirkin kampaniyadır".

Müəllif Leyla Yunusa, İlqar Nəsibova qarşı zorakılıq və insan haqlarının pozulmasında dair bir sıra başqa hallardan da yazaraq xatırladır ki, Azərbaycanda siyasi məhbusların sayı Rusiya və Belarusdaki vicdan məhbuslarından dəfələrlə çoxdur.

Azərbaycanda keçiriləcək Avropa oyunlarının boykot edilməsi haqda təşəbbüs irəli sürmək, Avropa liderlərini Soçi Olimpiadasında olduğu kimi açılış mərasimində iştirakdan imtina etməyə çağıran müəllifin fikrincə, belə bir addım bu oyunların Bakıda keçirilməsini "tarixi hadisə və böyük uğur" kimi qələmə verən rəsmi iqtidarın şöhrətpərəstlik hisslərini səngidərdi.

"Jurnalistlərə və vətəndaş cəmiyyətinə, eləcə də ABŞ-a hücumların davam etdiyi bir vaxtda Azərbaycanla əməkdaşlıq həmişəki kimi davam edə bilməz", - Kramer yazır.

"Rusiya və İran arasında yerləşən, Qafqaz və Orta Asiyanı Avropa və dünya bazarlarına birləşdirən Azərbaycan enerji və təhlükəsizlik baxımından strateji əhəmiyyət daşıyır"- deyə vurğulayan müəllif ABŞ-a meydan oxuyan hakimiyyətə bu hərəkətlərin baha başa gələcəyini də qeyd edir.

Göründüyü kimi, Azərbaycan hakimiyyətinin demokratik düşərgəyə təzyiqlərini artırması, korrupsiya və digər hallarla bağlı az qala hər gün yenilənən Qərb KİV-nin məlumatları ciddi siqnallardan xəbər verir.

Azərbaycan ətrafında hansısa planların qurulduğu və onların həyata keçmək ərəfəsində olduğu ehtimalları yüksəlməkdədir.

Bu gün araşdırmaçıları belə bir sual düşündürür - Azərbaycandan nə istəyirlər? Bu "kompromat savaşı"nın arxasında nə dayanır?

Bütün bunların başvermə səbəbinin bir Şərq ölkəsində insan haqlarının vəziyyətinin acınacaqlı durumda olması ilə heç bir əlaqəsi olmadığını siyasətlə az-çox təması olanlar gözəl dərk edirlər. Belə olan təqdirdə, yenə eyni sual yaranır - Bakıya hansı təkliflər edilib ki, ondan imtina bu dərəcədə aqressiya yaradıb?! Yəqin ki, bu suala cavab verə bilməkdən ötrü Azərbaycan ətrafında yaranan geosiyasi durumu təhlil etmək gərəkdir. Bu "soyuq müharibə"nin arxasında Amerika Birləşmiş Ştatlarının dayandığını nəzərə alsaq, məsələ bir qədər sadələşir. Yəqin ki, söhbət ABŞ üçün Azərbaycan cəmiyyətinin demokratikləşməsindən daha vacib məsələdən gedir.

Xəzər dənizinin ABŞ geosiyasətində olduqca mühüm rol oynadığını əlavə şərh etməyə ehtiyac yoxdur. Son zamanlar Vaşinqton bu bölgədə daha da möhkəmlənmək üçün konkret addımlar atmaq niyyətindədir. Enerji layihələri ilə zəngin olan Xəzər hövzəsi amerikalı ideoloqların qənaətinə görə, Rusiya və İran üçün bağlı olmalıdır. Amerikanın Xəzər hövzəsində NATO bazasını yerləşdirmək cəhdləri Vaşinqtonu daha fəal gedişlər etməyə sövq edir. Bu baxımdan, ABŞ hərbi bazalarının Xəzərə qısa bir zamanda buraxılması tələb olunan məsələlərdən ola bilər. Bu məsələdə Bakının tutacağı mövqe Vaşinqton-Moskva savaşının qalibini müəyyən edə bilər.

Son günlər Qərb mətbuatında Azərbaycanla bağlı dərc olunan tənqidlər Azərbaycana təzyiq kimi dəyərləndirilə bilər. Qərb Bakıdan həm İran məsələsində NATO ilə əməkdaşlıq, həm də Rusiya məsələsində birmənalı qərbpərəst mövqe tələb edir.

ABŞ mətbuatının son tənqidi yazıları Azərbaycana birmənalı Qərbyönlü diplomatiyaya üstünlük verməsinə çağırış kimi də dəyərləndirilə bilər. Sanki rəsmi Bakıya belə bir mesaj verilir ki, əks təqdirdə, daha mühüm məlumatlar ictimaiyyətin müzakirəsinə verilə bilər və müzakirələr zamanı ABŞ əsas katalizator rolunu oynaya bilər...

# Qubad İbadoğlunun hərəkatı təşkilatlanır

ADR-in ilk təşəbbüs qrupu yaradılıb, partiya yaradılması da alternativ variantlardan biridir...

**Müsavat başqanlığına keçmiş namizəd Qubad İbadoğlunun yaratdığı hərəkat rayonlarda təşəbbüs qrupu yaradır. Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının rayonda fəaliyyət göstərəcək ilk təşəbbüs qrupu yanvarın 5-də Salyanda təsis olunub. Bu barədə Q.İbadoğlu sosial şəbəkədə açıqlama yayıb.**



O bildirib ki, bu məqsədlə rayona Təşkilat Komitəsinin üzvü olaraq Ellada Məmmədli ilə gedib və müzakirələr aparılıb: "Yerli fəallar tərəfindən təşkil olunan və saatlarla davam edən müzakirələrimiz səmimi və faydalı keçdi. Fəaliyyətimiz davam edir, yaxın dövr üçün hədəfimiz ölkənin ən azı üçdə birini əhatə edəcək rayonlarda təşəbbüs qrupu yaratmaq və 1-2 ay ərzində ADR-in təsis yığıncağını təşkil etməkdir".

**Q.İbadoğlu həmçinin APA-ya bildirib ki, hazırda ADR-in strukturlaşması mərhələsidir:** "ADR-in strukturlaşması mərhələsini yaşayırıq. Elan etdiyimiz hərəkatın siyasi partiyaya çevrilməsi bu ilin proqram fəaliyyətində nəzərdə tutulmayıb. Amma strateji plan və müzakirələr başa çatmayıb, partiya yaradılması da alternativ variantlardan biridir. Partiya məsələsi nə vaxtsa gündəmə gələ bilər".

**ADR-in Təşkilat Komitəsinin sədri Qubad İbadoğlu bildirib ki, iki gün əvvəl Təşkilat Komitəsinin toplantısı olub, regionlarda təşəbbüs qruplarının formalaşdırılması və təsis yığıncağına hazırlıq müzakirə olunub:** "Yaxın bir ay-ay yarım ərzində ADR-in təsis yığıncağının keçirilməsini planlaşdırırıq. Nəzərdə tutmuşuq ki, təsis yığıncağına qədər Azərbaycan rayonlarının üçdə birində təşkilatlanaq. Təsis yığıncağından sonra da regionlarda strukturlaşma işi davam edəcək. Hazırda həm kənd rayonlarında, həm də Bakı şəhərinin rayonlarında təşəbbüs qruplarının formalaşması istiqamətində fəaliyyət davam edir. Fəaliyyət proqramı, strateji plan işlənib, bunu təsis yığıncağında açıqlayacağıq. Nizamnamə və əsasnamənin layihələri də hazırdır, bu sənədləri də təsis yığıncağına qədər ictimailəşdirmək istəmirik".

**Q.İbadoğlu üzvü olduğu Müsavat Partiyasının Məclisinin son iclasından və seçilən Məclis sədrindən də danışıb:** "Müsavat Məclisinin son toplantısı daha çox Məclisə sədr seçkisi ilə diqqət çəkirdi. Məclis sədri elə şəxs olmalı idi ki, partiya daxilində barışdırıcı mövqe tutsun və heç bir tərəfi təmsil etməsin. Bu baxımdan gözləntilərimiz özünü doğrultmadı".

**Q. İbadoğlu Vurğun Əyyubun Məclis üzvlüyündən uzaqlaşdırılması barədə aparılan müzakirələrin onu çox təəssüfləndirdiyini söyləyib. Onu razı salan məqamı da açıqlayan başqanlığa sabiq namizəd Məclisin Fəaliyyət Planını qəbul etməsini təqdir edib:** "Elan etdilər ki, Fəaliyyət Planının hazırlanmasında bizim təkliflərdən də istifadə olunub. Mən bunu müsbət qiymətləndirirəm".

**Q.İbadoğlu sabiq başqan İsa Qəmbərin çıxışına da toxunub:** "İsa Qəmbərin bu çıxışı da barışdırıcı deyildi. Səsləndirilən ittihamlar da konkret və ünvanlı deyildi. Belə açıqlamaların ünvanlı olması daha məqsədəuyğun olardı". **Q.İbadoğlu qurultaydan sonrakı müddət ərzində İsa Qəmbərin lider kimi öz çəkisini qoruyub-qorumadığını söyləməyin çətin olduğunu da bildirib:** "Tarix hər bir liderin, hər bir dəyişikliyin qiymətini verəcək. Zamanı gələndə, biz də dəyərləndirmə aparacağıq".

❑ Röya RƏFİYEVA

# Mədət Quliyev öldürülən məhkumun bacısını qəbul etdi

## **Simuzər Babayeva:** "Söz verdi ki, qardaşımın döyülərək öldürülməsində iştirak etmiş şəxslər cəzasını alacaq"

**14 saylı cəzaçəkmə müəssisəsində dünyasını dəyişmiş məhkum Elşad Babayevin bacısı Simuzər Babayeva Penitensiar Xidmətin rəisi Mədət Quliyevin qəbulunda olub. S.Babayeva xidmət rəisinin qəbulunda olarkən qaldırdığı məsələlər haqda "Yeni Müsavat"a bunları deyib: "Mədət Quliyevin qəbuluna öz təşəbbüsümlə getdim. Məni qəbul edib dinlədi. Söz verdi ki, qardaşımın döyülərək öldürülməsində iştirak etmiş hər bir şəxs cəzasını alacaq. Ona qardaşımın işgəncə ilə öldürülməsində 5 məmurun adının çəkildiyini dedim. O isə 3 nəfər haqda məlumatlı olduqlarını bildirdi. Mən Mədət Quliyevin vicdanlı olduğunu düşünərək qəbuluna getdim. Bunu özünə də dedim və xahiş etdim ki, əli qandallı məhkumu döyərək öldürənlər cəzalandırılsın. Mədət Quliyev dedi ki, vicdanla söz verirəm ki, haqq-hüquq nə tələb edirsə, elə də olacaq".**



Elşad Babayev

S.Babayeva qardaşından gözü qarşısında rüşvət tələb edən məmur haqda da xidmət rəisinə məlumat verib: "14 saylı cəzaçəkmə müəssisəsinə qardaşımla görüşə gedəndə o, bizə oradakı durumdan danışırdı. Sonuncu görüşümüz dekabrın 10-da olmuşdu. Həmin gün gözümüzün qarşısında rejim rəisi Əli Mustafayev qardaşımdan rüşvət aldı. Üstəlik, deyirdi ki, Elşad, verdiyin pul çox azdır. Onun barəsində Mədət Quliyevə məlumat verdim. Dedim ki, bu hadisədən sonra başqa məhkumlara da işgəncə verilir, onları karserlərə salıb "tubzon"a göndərirlər. Yaxınları ilə görüş vermirlər. 14-cü "zon"da yeməklərin həddən artıq keyfiyyətsiz olması, suyun yoxluğu, sanitar qovşaqlarının bərbadlığı, məhkumlara qarşı amansız münasibətdən danışdım. Qardaşımın meyitini morqa bir döşəyin üstündə göndərmişdilər. Həmin döşəyin üzünün rəngi çirkdən qaralmışdı, üstəlik, bit içində idi".

**S.Babayeva qardaşının ölümü ilə bağlı istintaq aparılması haqda məlumatsız olduğunu deyib:** "Qaradağ Rayon Prokurorluğunun müstəntiqindən istintaqın gedişi ilə maraqlandım. Dedi ki, hər hansı bir məlumat verə bilməz".

**S.Babayeva dedi ki, məsələ ilə əlaqədar prezidentə və birinci xanıma elektron məktub ünvanlayıb:** "Mən bu məsələnin unudulmağını, ört-basdır edilməyini qətiyyən istəmirəm. Onu da bilirəm ki, bu hadisə ilə əlaqədar heç kim məsuliyyətə cəlb olunmayıb. "Zon"un rəisi Əli İbrahimov da hələ ki öz vəzifəsini icra etməkdədir. Məhkəmə tibb ekspertizanın cavablarını gözləyirəm. Azərbaycan hüquqi dövlətdir, burada cəngəllik qaydaları deyil. Bu məsələ hüquq müstəvisində həll olunmalıdır. Onsuz da qardaşım qanunla deyil, məmurların özbaşına tətbiq etdikləri işgəncələr nəticəsində dünyasını dəyişib və bu səbəbdən hüquqları tapdalanıb. Əgər bu hadisə hansısa məmurların özbaşınalıqları ört-basdır ediləcək dəyərləndirilərsə, mən susmayacam".

**S.Babayeva əfv fərmanı ilə azad edilmiş vəkil Qurban Məmmədovun müsahibəsində qardaşının karserdə öldürüldüyünü deməsini xatırladı:** "Qardaşımı karserdə öldürüblər. Bunu Qurban Məmmədov da deyir. Çağırsınlar, onlara da desin. Bu adamlar vicdanlı şəxslərdir. Baş vermiş hadisəni necə bilirlərsə, elə də deyəcəklər. Orada hər yanda videokameralar quraşdırılıb. Həmin kameraların yaddaşına baxsınlar, görüntüləri götürsünlər".

Qeyd edək ki, dekabrın 30-da 14 saylı cəzaçəkmə müəssisəsindən əfv fərmanına əsasən azad olunan Q.Məmmədov E.Babayevin döyülərək öldürüldüyü haqda danışıb. Deyib ki, dekabrın 22-də səhər 9 radələrində çəzaçəkmə müəssisəsinə 1 dustağın döyülərək öldürülməsi haqda xəbər yayılıb. "Bu hadisəyə etiraz oldu. Təəssüf ki, məhkumlar etiraz hüquqlarından kənara çıxdılar. Növbətçi hissəyə hücum oldu, nəzarətçilər döyüldü. Eşitdiyim, bildiyim məlumatlar var. Bu cinayət ört-basdır edilə bilməz. Bəli, orada qanun pozulub. Lakin bu 1 məhbusun döyülərək, işgəncə verilərək öldürülməsinə göredir. Dövlət buna diqqət etməlidir. Yəni məhbuslar orada etiraz vəziyyəti yaratmaq istəyi ilə qalxmayıblar. Ona görə də etiraza qalxan məhbuslara münasibətdə dövlət humanist olmalıdır" - deyə Q.Məmmədov bildirib.

**Q.Məmmədov deyib ki, etirazdan sonra 11 dustaq Vərəmli Məhkumlar üçün Müalicə Müəssisəsinə köçürülüb. Qalanları isə 14 saylı cəzaçəkmə müəssisəsinin karsındadır:** "Tubzon"dan qayıdanlar orada dəhşətli hadisələrin yaşandığını danışırlar. Bu məsələ ictimaiyyətin diqqətində olmalıdır. Ora ictimaiyyət nümayəndələrinin iştiraki ilə baxış keçirilməlidir. Məhkumlar Araz Quliyev, Miryusif Seyidovun ağır durumda olduğu bildirilir. Ora gedib araşdırma aparılmalıdır. Onlar ölüblər, yoxsa qalıblar, müəyyən olunmalıdır".

Qeyd edək ki, dekabrın 22-də 14 saylı cəzaçəkmə müəssisəsində məhkumlar qiyama qalxıb. Buna səbəb isə məhkum Elşad Babayevin karsda (cəza kamerası) işgəncə ilə öldürülməsi olub. Öldürülən məhkumun yaxınlarının təqdim etdikləri fotolarda E.Babayevin bədəni üzərində çoxsaylı xəsarətlərin olduğu görünür.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 1 (6029) 6 yanvar 2015

**Yeni ilin ilk günlərində nəqliyyatla bağlı yayılan xəbərlər ictimaiyyəti narahat edir. Mətbuatda yayılan qeyri-rəsmi məlumatlara görə, yaxın zamanda marşrutlarda gediş haqları artırıla bilər.**

# Marşrut və metroda gediş haqları artırıla bilərmi?

## **Nəqliyyat Nazirliyi:** “Sahibkarlar gediş haqlarının artırılmasında maraqlıdır”
## **Metropoliten:** “Bu, Tarif Şurasının səlahiyyətində olan məsələdir”


Namiq Həsənov


Nəsimi Paşayev

Məsələ ilə bağlı “Yeni Müsavat”a açıqlama verən **Nəqliyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Namiq Həsənov** bu haqda rəsmi məlumatın olmadığını bildirdi: “Yeni avtobusların gətirilməsinin gediş haqlarına aidiyyəti olmayacaq. Bunun üçün öncə Nəqliyyat Nazirliyi Tarif Şurasına müraciət etməlidir. Yalnız Tarif Şurasının qərarı ilə gediş haqları artırıla bilər. Ancaq Nəqliyyat Nazirliyi qiymət artımı ilə bağlı Tarif Şurasına müraciət etməyib. Bu cür söhbətlər mətbuatda gəzir, ancaq əsası yoxdur”.

**Nazirlik sözçüsü bildirdi ki, təkcə Nəqliyyat Nazirliyinin yox, sərnişin daşınması xidməti ilə məşğul olan şirkətlərin də istəyi var ki, marşrutlarda gediş haqları artırılsın:** “Sahibkarlar həmişə daha çox pul qazanmaq məqsədilə xərcləri qarşılamaq üçün gediş haqlarının artırılmasında maraqlı olublar. Sahibkarlar tərəfindən də bizə müraciətlər olub. Biz ötən il qiymət artımı ilə bağlı Tarif Şurasına müraciət etmişdik, qəbul olunmadı. Bu il isə müraciət etməmişik”.

Digər iddialara görə, avtobuslarda gediş haqlarının artırılması insanların metrodan daha çox istifadə etməsinə gətirib çıxaracaq ki, bu da metroda gediş haqlarının artmasına səbəb olacaq. Bir neçə dəfə bildirilib ki, guya metroda bir sərnişinin daşınma xərci 49 qəpikdir və bu xərcin 29 qəpiyi dövlət büdcəsindən ödənilir.

**“Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayevin sözlərinə görə, hazırda belə bir məsələ metropolitendə müzakirə mövzusu deyil:** “Bu doğrudur ki, bir nəfərin metrodan istifadəsi ilə bağlı xərc onun ödədiyi məbləğdən çox yüksəkdir. Ancaq bu, dövlət tərəfindən ayrılan dotasiyalar hesabına kompensasiya olunur. Hazırda gediş haqlarının artırılması ilə bağlı müzakirə aparmırıq, belə bir səlahiyyətimiz yoxdur. Çünki bu, Tarif Şurasının səlahiyyətində olan bir məsələdir. Ola bilər ki, belə bir təklif metropoliten tərəfindən göndərilsin. Ancaq hazırda təmsil etdiyim qurumdan belə bir müraciət göndərilməyib”.

❑ **Nərgiz LİFTİYEVA**



# Maşınların qiyməti artacaq

**“Bahalı avtomobillərdə 10 min manatdan artıq qiymət artımı gözlənilir”. ANS PRESS-in məlumatına görə, bu barədə iqtisadçı-alim Vüqar Bayramov qeyd edib. O bildirib ki, Vergi Məcəlləsinə edilən son dəyişikliklərə görə, Azərbaycana xaricdən gətirilən avtomobillərə görə ödənilən aksiz vergisinin məbləğləri artırılır.**

“Belə ki, mühərrikinin həcmindən asılı olaraq bütün növ avtomobillərin ölkəyə idxalına tətbiq edilən vergilər dəyişdirilir. Yeni dəyişikliklərə əsasən, mühərrikinin həcmi 2 000 kubsantimetrə qədər olan avtomobillərdə mühərrikin hər kubuna görə aksiz vergisinin məbləği 15 qəpikdən 20 qəpiyə, mühərriki 2000-300 kubsantimetr olan avtomobillərdə 1 manatdan 1,5 manata, 3000-4000 kubsantimetr olan avtomobillərdə 2 manatdan 4 manata, 4000-5000 kubsantimetr avtomobillərdə 4 manatdan 8 manata, mühərrikinin həcmi 5 000 kubsantimetrdən artıq olan avtomobillərdə isə 4 manatdan 10 manata qaldırılıb”.

**Mütəxəssisin fikrincə, son dəyişikliklərə diqqət yetirəndə bəlli olur ki, mühərrikinin həcmi daha bahalı olan avtomobillərdə daha yüksək qiymət artımları müşahidə ediləcək:** “Məsələn, mühərrikinin həcmi 5 000 kubsantimetrdən artıq olan avtomobillərdə qiymət artımları hətta 10 min manatdan da yüksək olacaq. Xüsusən də yeni istehsal olunan, işlənməmiş avtomobillərdə daha ciddi qiymət artımlarının olacağı gözlənilir. Mühərrikin həcmi 4000-5000 kubsantimetr olan avtomobillərdə isə qiymət artımları 6600 manatadək yüksələcək. Bu növ avtomobillərdə orta hesabla 5000 manat qiymət artımı olacaq. Mühərrikin həcmi 2 000 kubsantimetrə qədər olan avtomobillərdə isə cüzi xərc artımları gözlənilir. Bu avtomobillərin ölkəyə idxal xərci 100 manatdan çox artmayacaq. Əgər bu avtomobillərdə qiymət artımı müşahidə ediləcəksə, o zaman o süni qiymət artımı olacaq”.

**Vüqar Bayramov bildirib ki, 2013-cü ildə ölkəmizə 103 min avtomobil idxal olunmuşdu. Bunların 94 mini minik avtomobilləri idi:** “Güman olunur ki, 2014-cü ildə avtomobil idxalı əvvəlki illə müqayisədə 30 faizdən artıq azalıb. Bu isə daha çox ötən ilin aprelində ölkəmizdə Avro-4 standartlarının tətbiqi ilə bağlı istehsal ili köhnə olan avtomobillərin idxalına tətbiq edilən qadağa ilə bağlı idi. Avtomobil idxalına tətbiq edilən aksiz vergilərinin artırılması bu il avtomobil idxalını azaltmaqla yanaşı, ölkəmizə daha çox mühərrik həcmi kiçik olan maşınların gətirilməsinə səbəb olacağı gözlənilir. Bu isə o deməkdir ki, qiymət artımları mühərrik həcmi böyük olan avtomobillərə tələbin azalmasına səbəb olacaq ki, bu da bahalı maşınların satışında durğunluqla ifadə olunacaq. Əksinə, mühərrik həcmi kiçik olan avtomobillərin satışının çoxalacağı gözlənilir”, - deyə iqtisadçı söyləyib.

# Bayram günlərində Azərbaycana turist gəldimi?

## Ölkədə turizm sahəsində qiymətlərin yüksək, xidmətin isə aşağı olması ölkədən xaricə axına şərait yaradır; **Vüqar Bayramov:** “Vətəndaşlarımızın istirahət üçün başqa ölkələri seçməsi iqtisadiyyata mənfi təsir göstərir...”



**Yeni il ərəfəsində həm bayramı qarşılamaq, həm də qeyri-iş günlərində istirahət etmək üçün ölkə daxilindəki istirahət məkanlarına üz tutanlarla yanaşı, xarici ölkələrə gedənlər də az olmadı. Məlumatlara görə, təzə təqvim ilini ölkədən kənarda keçirən azərbaycanlıların sayı ilbəil artmaqdadır. Bəs Yeni il ərəfəsində Azərbaycana necə, kifayət sayda turist gəldimi?**

Aparılan araşdırmalar sualı müsbət cavablandırmağa imkan vermir. Təhlillər göstərir ki, Azərbaycana turist axınının zəifliyi turizm mərkəzlərindəki qiymətlərin digər ölkələrlə müqayisədə yüksək olması ilə əlaqədardır. İş ondadır ki, turistlər Cənubi Qafqaz ölkələri sırasında ən çox Azərbaycanda pul xərcləməli olurlar.

**Mövzu ilə bağlı söhbət etdiyimiz iqtisadçı ekspert Vüqar Bayramov öncə vətəndaşlarımızın xarici ölkələrdə Yeni ili qeyd etməsinin ölkə iqtisadiyyatına mənfi təsir etdiyini dedi:** “Ölkə nə qədər turist idxal edirsə, bir o qədər də turist gəlir. Başqa sözlə, nə qədər turist gəlirsə, bir o qədər də gəlir əldə olunur. Həmçinin də əksi: ölkədən nə qədər çox turist gedirsə, o qədər çox valyuta ölkəni tərk edir. Azərbaycan vətəndaşlarının xaricdə dincəlməsi və xarici ölkələrdə Yeni ili qeyd etməsi birmənalı şəkildə vəsaitin ölkədən çıxması və digər ölkələrə getməsi anlamına gəlir. Bu da Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərir. Çünki vəsait ölkədən gedir. Həmin vəsait dollar valyutası şəklində ölkəni tərk edir. Çünki turistlər digər ölkələrdə dollardan istifadə etməklə öz xərclərini qarşılayırlar. Bu da valyuta bolluğuna mənfi təsir göstərir. Pul ölkədən gedirsə, bu, birmənalı olaraq ölkə iqtisadiyyatı üçün arzu olunan deyil və mənfi təsir göstərir. Bu baxımdan da Azərbaycan çalışmalıdır ki, turistlər ölkə daxilində qalsınlar və ölkə daxilində istirahət etsinlər. Nəzərə almaq lazımdır ki, bayram müddətində qeyri-iş günləri çox olduğundan turizmdən istifadə edənlərin sayı da çox olur”.

**V.Bayramov Azərbaycana az sayda turist gəlməsinin səbəblərindən də danışdı. Ekspert daxili turizmin turistlik tələbatlarını ödəmək imkanında olmadığı qənaətindədir:** “Burda da əsas problem ondan ibarətdir ki, Azərbaycanda daxili turizm ölkədə artan turistlik tələbatını ödəmək imkanına malik deyil. Azərbaycanda fəaliyyət göstərən hotellərin gündəlik çarpayı sayı 33 mindir. Bu, o deməkdir ki, Azərbaycan il ərzində 33 min turisti qarşılamaq imkanına malikdir. Ancaq bayram mövsümündə turistlik xidmətindən istifadə edənlərin sayı çox olur. Nəzərə almalıyıq ki, rayonlarda xüsusən bayramlar ərəfəsində turistlik məkanlarda yer tapmaq probleme çevrilir. Bu, heç də daxili turizmin imkanlarının yerində olması anlamına gəlmir. Rayonlardakı hotellərdə yerin olmaması birmənalı şəkildə onunla bağlıdır ki, Azərbaycanda turizm obyektlərinin, hotellərin təklifi aşağıdır. Həmçinin turizm xidməti ilə məşğul olan şirkətlərin sayı azdır. Bu baxımdan bu sektora nəzarət gücləndirilməli, daha çox şirkətlərin turizm sektorunda fəaliyyət göstərməsinə şərait yaradılmalıdır. Həmçinin hotellərin, xüsusən də bir və ikiulduzlu hotellərin sayının artırılması olduqca vacibdir. Daxili turizmin miqyasını genişləndirməklə ölkə vətəndaşlarının ölkə daxilindəki turizmdən istifadə etmələrinə nail olmaq olar. Bu vacib məsələdir. Əks təqdirdə, vəsait ölkəmizi tərk edəcək”.

❑ **Günel MANAFLI**

# Bayram tətilləri dövlət büdcəsinə nə qədər ziyan vurur?

## Natiq Cəfərli: "Azərbaycan büdcəsinin əsasən neft gəlirləri hesabına formalaşdığını nəzərə alsaq, bu sahədə iş istirahət günlərində belə dayanmır"



**Bayram ərəfəsində baş verən qiymət artımı hələ də davam edir. Bakıda yerləşən "Səkkizinci kilometr" bazarındakı müşahidələrimiz də bunu deməyə əsas verir. Meyvələrin qiymətində 50 qəpik - 1 manat, quru meyvələrin qiymətində 1-3 manat, balıq məhsullarında 2 manat, tərəvəz məhsullarının qiymətində isə cüzi bahalaşma var və satıcılar vəziyyətin bu cür davam edəcəyini deyirlər. Alıcılar da vəziyyətdən narazıdırlar. Onlar vəziyyətdən çıxış yolu kimi ərzaq səbətindən bəzi məhsulları ixtisar etməyi düşünürlər.**

**Bayram tətilləri dövlət büdcəsinə necə təsir edir?**

Bu haqda "Yeni Müsavat"a danışan iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, Azərbaycanda istirahət günlərinin çox olmasının büdcə gəlirlərinin azalmasına səbəb olması ehtimalı çox azdır: "Azərbaycan büdcəsinin əsasən neft gəlirləri hesabına formalaşdığını nəzərə alsaq, bu sahədə iş istirahət günlərində belə dayanmır. Növbəli sistem əsasında bayram günlərində də fasiləsiz iş gedir. Ona görə də dövlət büdcəsi üçün hər hansı problem yaranmır.

İstirahət günlərindən istifadə edən əsas işçi qrupu məmurlardır, onların sayı isə 940 minə yaxındır. Onların ölkə iqtisadiyyatında əlavə dəyər yaratmaqda ciddi iştirak payı yoxdur. Ona görə də təqvimdə bayram günlərinin çox və ya az olması Azərbaycan büdcəsinin formalaşmasında, iqtisadi aktivliyin azalmasında ciddi rol oynamır".

**"Bayramdan dövlət də qazana bilər"**

**Ekspertin fikrincə, əslində dövlət lazımi iqtisadi islahatlar aparmaqla bayram günlərindən daha qazanclı çıxmağın yollarını tapa bilər:** "Tam tərsinə, əgər normal bir iqtisadi sistem mövcud olsaydı, bayram günlərində ictimai-iaşə obyektlərindən gələn gəlir artar və büdcəyə vergi şəklində ödəmələr çoxalardı. Bu yolla bayram günləri büdcəyə ziyan vurmaq əvəzinə gəlir gətirə bilər. Bu səbəbdən istirahət günlərinə münasibətin dəyişməsindənsə, iqtisadiyyatın idarə olunmasına münasibət dəyişməlidir".

**Başqa ölkələrin bayram tətili**

**Bu sahədə xarici təcrübədən danışan Natiq Cəfərli onu da qeyd etdi ki, xüsusən dini bayramların daha çox üstünlük təşkil etdiyi ölkələrdə bayram günlərinin sayı təxminən Azərbaycanda olduğu qədərdir:** "Məsələn, qardaş Türkiyədə Ramazan və Qurban bayramı ərəfəsində uzunmüddətli tətillər olur. Bu praktika həmçinin postsovet ölkələrində də mövcuddur».

❑ Nərgiz LİFTİYEVA



# Bayram günlərində 280 cinayət törədilib

## 60 yol qəzasında 23 nəfər ölüb, 84 nəfər yaralanıb

**Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar Azərbaycanda qeyri-iş günlərində baş verən yol-nəqliyyat hadisələri zamanı 23 nəfər ölüb. Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, dekabrın 31-dən yanvarın 5-dək ölkə ərazisində 60 yol qəzası qeydə alınıb. Baş verən qəzalar nəticəsində 23 nəfər ölüb, 84 nəfər yaralanıb. Qəzaların əksəriyyəti sürət həddinin aşılması, ötmə və manevretmə qaydalarının pozulması nəticəsində baş verib.**

Daxili İşlər Nazirliyinin saytında dekabrın 31-dən yanvarın 4-nə qədər respublikanın daxili işlər orqanları tərəfindən 280 cinayət faktının qeydə alınması haqda məlumat var. Bayram günlərində baş vermiş 103 cinayətin üstü "isti izlər"lə açılıb. Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə axtarılan 15 nəfər tutularaq istintaq orqanlarına təhvil verilib. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 13 fakt müəyyən edilib. Cinayət törətdiklərinə görə 95 nəfər tutulub. Qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyən olunub.

Bayram günlərində həmçinin Azərbaycanda üç nəfər zəhərlənərək ölüb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, yanvarın 2-də Sumqayıt şəhərində yaşayan İnqilab Şükürov alkoqoldan zəhərlənmə ilə xəstəxanaya gətirilib və yanvarın 3-də orada ölüb. Yanvarın 3-də Gəncə şəhərində yaşayan Rəfayel Quliyev dəm qazından zəhərlənərək ölüb. Şamaxı rayonunun Çuxuryurd kəndində isə Nisə Bayramova dərman və sirkə turşusundan zəhərlənmə ilə xəstəxanaya aparılarkən yolda ölüb. Hər üç faktla bağlı araşdırmalar aparılır.

❑ E.MƏMMƏDƏLİYEV



# SOS: Azərbaycan fəlakətlə üz-üzə

**"Xəzərin səviyyəsi neçə illərdir düşür. 2014-cü ildə isə suyun səviyyəsi hiss olunacaq dərəcədə aşağı düşüb". Bunu APA-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov deyib. Onun sözlərinə görə, səviyyənin aşağı düşməsinin səbəbi Volqa çayının suyunun azalması ilə bağlıdır.**

Volqa çayının suyunun 300 kub-kilometrdən 200 kub-kilometrə düşdüyünü deyən R.Məmmədov qeyd edib ki, bu da böyük həcmdə su ehtiyatıdır: "Həm də ərazi arid zona olduğuna görə yer səthində quraqlıq, buxarlanma çox olur. Keçən il Azərbaycanda bütün çaylar qurudu, kənd təsərrüfatına ziyan dəydi. Buxarlanma çox, gələn su isə az olduğuna görə səviyyə aşağı düşür. Bunun nəticələri də mənfi olacaq və Azərbaycan üçün ciddi fəsadlar yaradacaq. Gəmi nəqliyyatına, dəniz təsərrüfatının hamısına mənfi təsir edəcək. Bundan əlavə, sahil zonasının özünün də rütubətlənmə rejimi azalacaq və mənfi təzahürləri olacaq".

R.Məmmədov qeyd edib ki, son dörd il ərzində Xəzər dənizinin səviyyəsi -28 metr düşüb. Onun sözlərinə görə, bu, 1970-ci ildəki səviyyəyə yaxındır: "O zaman Xəzərin səviyyəsi -28 m, 1978-ci ildə isə 1 metrə kimi də düşərək -29 metr olub. Sonradan səviyyə qalxmağa doğru gedib. 1996-cı ilə kimi Xəzərin səviyyəsi 2 metr yarım qalxıb, sonra bir müddət sabit qalıb. 1978-ci ildə Xəzərin səviyyəsində 29 m, 1996-cı ildə isə Xəzərin suyunun səviyyəsində 26,5 metr azalma qeydə alınıb.Sonra səviyyə bir az sabit qalıb və 2010-cu ilin əvvəllərindən yenidən düşməyə başlayıb və bu günə -28 metrə kimi düşüb".

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

- **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
- **Cinsi marağın** və **cinsi aktların** azalması
- **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
- **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər)**
- **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
- **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi)*
- **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
- **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
- Əvvəldən **xarici cinsi üzvün** balaca olması
- **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
- **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
- **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
- **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
- Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
- **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
- Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
- Sidik aktlarının çətinlikləri və tutulmaları
- Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
- **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
- **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
- **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Elan**

**Azərbaycan Dövlət Neft Akademiyasının tələbəsi Səlimov Saleh Zahir oğlunun adına olan tələbə bileti itdiyi üçün etibarsız sayılır.**




**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 1 (6025) 6 yanvar 2015

# Əməkdaşımız "Bəxtiyar" filmini yenidən "çəkdi"

**1955-ci ildə çəkilmiş "Bəxtiyar" filmində çoxlarının sevdiyi bir hissə var. "Hüseynova bacıları"nın (Münəvvər Kələntərli və Gülzar Hüseynova) "öz məharətini göstərməsindən sonra neftçi "Bəxtiyar Muradov" (Rəşid Behbudov) komissiyanın qarşısında oxuyur, hətta küçədən keçənlər də bu ecazkar səsi eşidib ayaq saxlayır, iri dəmir darvazanı açıb yay klubuna daxil olurlar. Sonda gur alqışlardan klubun müdiri "Ağabala"(Ağasadıq Gəraybəyli) də özünü itirir. Ancaq belə gözəl səs sahibinin adi neftçi olmasına kimsəni inandıra bilmir...**













## "Hüseynova bacıları", "Bəxtiyar Muradov"... və dağılan tarixi səhnə

### Yaxud dahi şair Nizami Gəncəvinin adını daşıyan istirahət parkına hansı məmur-oliqarxın gözü düşüb?

Elə həmin səhnə, böyük sənətkarların ayaqlarının izi olan ünvan bu gün baxımsız, uçuq-sökük vəziyyətdədir. Əslində dağılan, sökülən Xətai rayonundakı təkcə bu səhnə, yay klubu deyil, ümumən Nizami adına Mədəniyyət və İstirahət Parkının indiki durumu acınacaqlıdır. Parkda istirahət üçün geniş imkanlar olduğu halda hansısa "güclü bəndələri"in yaratdığı maneələr səbəbindən park yetim kökündə qalıb, təmirsiz, attraksionlar baxımsız halda. Bu barədə parkın direktoru ürək ağrısı ilə danışır...

**Quliyev Alfred İbrahim oğlu əslən İrəvandandır.** 1941-ci ildə anadan olub. Əslən Zəngibasardan (Uluxanlı) olan atası İbrahim kişi müharibə iştirakçısıdır. 22 iyunda müharibə başlayıb, 23-də İrəvanın Spandaryan rayonundan müharibəyə aparılıb. Babası isə Nikolayın zamanında 19 il həmin ərazinin rəhbəri olub. Deyir, qohumları İqdırın Məliklisində də çoxdur. İnqilabdan sonra, deportasiya zamanı köçüb Türkiyəyə gediblər. A.Quliyev də Stalinin 1947-53-cü ildə həyata keçirdiyi deportasiyanın qurbanlarındandır. Alfred müəllimgilin ailəsi 1951-ci ildə köçüb Bakıya gəlib: "Burda 7 saylı məktəbdə 3-cü sinifdən təhsilimi davam etdirməyə başladım. Stalinin ölümündən sonra dedilər, kim istəsə, geri dönə bilər. Ancaq çox az adam qayıtdı, İrəvan camaatının əksər hissəsi Gəncə, Xanlar, Saatlı tərəfdə məskunlaşdı".

**1960-cı ildə A.Quliyev Teatr İnstitutuna, indiki Mədəniyyət və İncəsənət Universitetinin aktyorluq fakültəsinə daxil olub:** "Mənim kurs rəhbərim Rza Təhmasib idi. Oranı bitirəndən sonra uzun müddət mədəniyyət sahəsində çalışmışam. Ən gözəl xatirələrim Sarabski adına Mədəniyyət Evi ilə bağlıdır. Daha sonra Əbilov adına Mədəniyyət Evinin direktoru işləmişəm.

Burda isə 1997-ci ildən işləyirəm. Mən bura gələndə park bərbad vəziyyətdəydi. Heç hasarı da yox idi. Qaçqınlar məskunlaşmışdı. Burada inək, qoyun-quzu otarırdılar. Rayon və şəhər rəhbərliyinin köməyi ilə 1 il ərzində burada böyük abadlıq işləri həyata keçirdik. 1998-ci il iyulun 1-də parkın təmirdən sonra açılışı oldu. Biz bu parkı mərhum prezidentimiz Heydər Əliyevin 75 illik yubileyinə hazırlamışdıq". **Bu parkın adı 3 dəfə dəyişib. 1922-25-ci illərdə park SSRİ-nin ilk təhsil naziri Lunoçarskinin adını daşıyıb. 1930-cu ildə isə bu ünvanda Rotefano olub. A.Quliyev bunun izahını da verir:** "Rotefano "al bayraqlar" deməkdir. 30-cu illərin əvvəllərində Almaniyada eyni adda






bir bolşevik cəmiyyəti yaranmışdı, SSRİ-də onlara dəstək məqsədilə bir çox təbliğat işləri aparılırdı. Ona görə də parkımıza da belə bir ad verilmişdi. Ancaq 1943-cü ildə dahi şairimiz Nizaminin 800 illiyi ilə əlaqədar parkımızın adı yenidən dəyişdirildi. Bu günə qədər də Nizami adına Mədəniyyət və İstirahət Parkı adlanır".

**Nizami parkı ərazisinə görə Bakıdakı bir çox istirahət məkanlarını geridə qoyur. Parkın ərazisi 11,5 ha-dır. A.Quliyev deyir ki, vaxtilə burda 18 təşkilat olub:** "Tədricən rəhbərliyin köməyi ilə bunlar köçürülüb. İndi bizdə 2 təşkilat qalıb. Bir həmkarlara məxsus olan "Kurort" Səhmdarlar Cəmiyyətidir, bir də Ekoloji Tərbiyə Mərkəzi yerləşir".

***

Park direktoru dahi şairin adını daşıyan parkın bu vəziyyətdə olmasından üzgün olduğunu deyir: "Parkın fəaliyyətinin dayandırılması bizi çox məyus elədi. Hətta Nobel prospekti təmir




olunanda parkın qarşısına daş hasar çəkilmişdi. Nazirimizin məsələyə müdaxiləsindən sonra daş hasarı söküb dəmir çərçivə ilə əvəzlədilər. Amma mən istərdim ki, parkın qarşısı açıq olaydı, camaat gəlib-gedəydi. Parkı öldürmək olmaz. Burda təmiri də yəqin ki, hissə-hissə aparacaqlar. Fikir verin, şəhərimizdə necə gözəl parklar var. O gün Yasamaldakı Qanlıgölün yanından keçəndə gözlərimə inanmadım. O cür dağlıq yerdə necə gözəl park salınıb. Əlbəttə, ürəkaçandır. Lain qoy bizim park da yaşasın. Şəhərimizdə nə qədər çox park olsa, camaatımız istirahət üçün bir o qədər geniş imkanlar əldə edər".

**Parkın fəaliyyətinin iflic hala salınmasından sonra burada icarə şərtləri ilə çalışanlar da yır-yığış edib gediblər:** ""Luna Park"ın heyəti burda icarə əsasları ilə işləyirdi. Onlar bu vəziyyəti görəndən sonra bağlayıb getdilər. "Luna Park" bir marka, brenddir. Çoxlu sayda oyun aparatları, attraksionlar quraşdırmışdılar, xeyli uşaq gəlib burda istirahət edirdi. Bizdə 2000-ci ildən fəaliyyət göstərirdilər. Ancaq bu yaxınlarda yığışıb getdilər. Özümüzdəki attraksionlar da fəaliyyətini tam dayandırıb. Çünki bu vəziyyətdə attraksionlar işləsə, onlar da arenda verməli, vergi ödəməlidir".

**Direktor deyir ciddi şəkildə böhranlı günlər yaşanılır:** "İşçilərə maaş verməkdə çətinlik çəkirik. İcarə də elə böyük məbləğ deyil ki, onunla 8 nəfər işçini saxlayasan. Məndə 15 nəfər işləyirdi, yarısı ixtisara düşüb. Şəxsən mənim maaşım 250 manatdır. İşçilərin aşağı maaşı 150 manatdır".

***

**Azərbaycanda doğulan Aleksandr (Saşa) parkın bədii rəhbəridir. Uzun illərdir bu parkda işləyir.** Vaxtilə ansamblda gitara ufa edib. Elə onun məşq otağına da daxil oluruq. Gitarada bir mahnı ifa etməsini xahiş edirik. Azərbaycanca "lazım deyil" söyləyir. Ardınca da 1997-ci ildən gitaraya vida etdiyini bildirir. Məşhur hind filmindəki "Cimi, oxu" sözlərini Saşaya ünvanlayırıq. Gülərək gitaranı götürür və barmaqlarını simlərdə gəzdirir... Sonra isə "indi mən ayrı "instrument"də ifa edirəm - "drel"də" deyib deşici aləti göstərir". Musiqiçi Saşa indi burda həm də ustalıq edir.

Saşanın iş otağında isə yuxarı başqa proletariatın rəhbəri Leninin tunc büstü diqqətimi çəkir, köhnədən xatirə saxlayıb. Kreslo üzərində bir pişik saymazyana yayxanıb yatır. Sanki bu ünvanda hər şey ögey münasibətdən gileylidir, suvağı uçan divarlardan tutmuş zalın girişindəki kökdən düşmüş pianinoya qədər...

Alfred müəllim "Bəxtiyar" filminin yuxarıda barəsində bəhs etdiyimiz səhnəsinin durumundan da danışır. Çox istəyir ki, böyük sənətkarların rol oynadığı, bu gün bəlkə də ruhlarının dolaşdığı bu ünvan təmir olunsun, orada həmin tarix istirahətə gələnlərə xatırladılsın. Yay klubuna baxmaq istədiyimi deyirəm. Qapıların qıfıllı olduğunu, içəridəki tikilidə, "Ağabalanın otağı"nda isə qaçqın ailəsinin yaşadığını deyir. Səmimi şəkildə etiraf edir ki, bu tarixi məkanın belə duruma düşməsi onu çox üzür. Ancaq əlindən bir iş gəlmir. Direktor özü nəvəsini bağçadan götürmək üçün tələsdiyini deyib üzrxahlıq edərək ayrılır. Alfred müəllim gedəndən sonra qeyri-ixtiyari düşünürəm: görəsən, dahi şairin adını daşıyan parka hansı məmur-oliqarxın gözü düşüb..?

***

Kilidli dəmir qapını açmağın qeyri-mümkün olduğunu yəqin edəndən sonra hündür hasarın o üzündəki səhnəni görmək üçün hətta yaxınlıqdakı ağaclardan birinə dırmaşmaq variantı üzərində belə baş sındırıram. Ancaq şansım gətirir. Saşadan nərdivan soruşduqda yerini nişan verir. Və budur, nərdivan məni "Bəxtiyar"ın qəhrəmanlarının yer aldığı səhnə ilə üz-üzə qoyur. Bir anlıq çox qəribə hisslər keçirirəm. Bozarmış divarlar, ot-ələf basmış yer, sınıq-salxaq oturacaqlar...Sanki Ağasaqı Gəraybayli komissiyaya "yox, canım, Hüseynova bacıları indi məharətlərini göstərəcəklər" deyib Münəvvər xanımgili səhnəyə itələyir, "balam hey" sədası ucalır, neftçi Bəxtiyarın ecazkar səsi yayılır: "Üzüyümün qaşı firuzədəndir..." Kəsəsi, mədəniyyətimiz böyük bir tarixi parçası var bu məkanda. Bu tarixi bərpa edib müasir nəslə təqdim etmək lazımdır...

❑ **Elşad PAŞASOY**

# YENİ MÜSAVAT

Son səhifə

N 1 (6029) 6 yanvar 2015


# Bir balığı 37.5 min dollara satdılar

Yaponiyalı restoran sahibi Kiyosi Kimura 180 kiloluq balıq üçün 37.5 min dollar ödəyib. Sakit okeandan tutulan tuna adlı balıq yanvarın 5-də Tokionun Tsukidzi bazarında keçirilən hərracda o qiymətə satılıb.

Sushi-Zanmai restoranının sahibi Kimura deyib ki, hərracda qalib gəlməsi onu təəccübləndirib. Çünki balığın qiyməti çox aşağı olub. Mütəxəssislər isə hesab edir ki, balığın aşağı qiymətdə olması bazarda aktiv rəqabətin olmaması ilə bağlıdır. Bundan bir qədər iri, amma eyni keyfiyyətdə olan tuna üçün rekord satış qiyməti 2013-cü ildə müəyyənləşib. O zaman 222 kilo çəkisi olan balıq 1.8 milyon dollara satılıb. İki il əvvəl gerçəkləşən auksionun qalibi də Kiyosi Kimura olmuşdu.





## 380 avro ödədi, balığı əməliyyatdan keçirdi

Şərqi İngiltərədə 7 sm uzunluğu olan akvarium balığı əməliyyat edilib. Ona yemək borusu tıxanması ilə bağlı ciddi diaqnoz qoyulub. Bir saata yaxın davam edən əməliyyat zamanı balığa narkoz verilib. Öz sevimli balığı üçün tibbi kömək istəyən yerli sakinlərdən biri olub. Balığın sahibi əməliyyat üçün 380 avro ödəyib. Həkim Fey Bettel isə əməliyyatla bağlı deyib ki, hər bir heyvan sahibi o heyvan üçün məsuliyyət daşıyır və onun sağlığı üçün lazım gələndə bu cür fədakarlıqlar etməlidir.



## Beynində əməliyyat keçirildi, həkimlərə pişiklərindən danışdı

Beynindəki xərçəng şişinin götürülməsi əməliyyatı zamanı 19 yaşlı İqa Yasika adlı qız tibb dünyasını şoka salıb. Hadisə Polşada baş verib. Xəstə həkimlərin manipulyasiyası bitmədən öncə oyanıbmış.

Cərrahlar bildirib ki, bu durumda danışmaq pasiyentə hər hansı təhlükə yaratmır. Professor David Laricin sözlərinə görə, əməliyyat olduqca uğurlu keçib. Xəstə isə əməliyyatı aparan həkimlərlə öz sevimli pişiklərindən danışıb. Amma həkim bildirib ki, bununla yanaşı, gənc qadın nəyisə görəcək və duyacaq durumda deyildi. Ekspertlər hesab edir ki, beyindəki hansısa manipulyasiya nəticəsində anesteziya effekt verməyib və xəstə əməliyyat zamanı oyaq olub.

## Bu qəsəbədə ancaq qadınlar yaşayır



Braziliyanın cənub-şərqində Noiva do Kordeiro qəsəbəsində yalnız qadınlar yaşayır. Burada 600-dən çox qadın var. Onların çoxu 35 yaşdan yuxarıdır. Qadınlardan bəziləri evli olsa da, həyat yoldaşlarının özləri ilə yaşamasına icazə vermirlər. Bu səbəbdən qadınlar ərə getməmişdən əvvəl sevgililəri qarşısında şərt qoyurlar ki, onlar qəsəbədə tək yaşayacaqlar. Oğlan uşaqları da 18 yaşdan sonra buradan çıxarılır. Qadınlar həyat yoldaşlarına yalnız həftə sonlarında qəsəbəyə girməyə icazə verirlər. Noiva do Kordeiro qəsəbəsinin sakinləri hər bir işi özləri görür.

Qadınlar bu qəsəbəni çox sevdiklərini və evlənəndən sonra da buradan çıxmaq istəmədiklərini deyirlər. Sakinlərin bir şüarı var: "Həyat kişilərsiz çox gözəldir!.."

## Unutqanlığa qarşı şabalıd



Havaların soyuq olmasına baxmayaraq qış mövsümündə istifadə edilən faydalı və ləzzətli qidalardan biri şabalıddır. Unutqanlığa təsirli olan şabalıd, həmçinin bədən müqavimətini artırmağa da kömək edir.

Pəhriz mütəxəssislərinin bildirdiyinə görə, şabalıdın tərkibi zəngin olduğundan istənilən miqdarda istifadə edilə bilər.

Bundan əlavə, qış mövsümündə enerji saxlamaq üçün lazımlı qida mənbələrindən biridir. Şabalıd fiziki və zehni yorğunluğa da müsbət təsirlidir. Qida dəyərinə B1, B2 və C vitaminləri də daxildir.

Bəzi məlumatlara əsasən, şabalıdda kalium, fosfor maqnezium, kalsium dəmir və natrium kimi minerallar da var. Tərkibindəki yağ turşuları sayəsində daha çox unutqanlığı aradan qaldırmağa kömək edir. Şabalıd qabığının qaynadılaraq dəmləməsi yüksək temperaturun düşməsində və əsəblərin sakitləşməsində effektiv nəticə verir.



## Bədənində yüzdən çox xalı olan insanlar daha gənc qalır

İtaliyanın La Repubblica qəzetində verilən xəbərə görə, London Kral Universitetinin bir qrup alimi, Cindy Crawford, Eva Mendes və Marilyn Monroe kimi qadınların gözəllik simvolu olan xallar əsas götürən araşdırma aparıb. Araşdırmada yaşları 18 və 79 arasında dəyişən və bir-birinə bənzəməyən 1200 qadın iştirak edib.

Araşdırmanın nəticəsinə görə, yüzdən çox xalı olan insanların əzələləri daha gərgin, ürək və gözləri daha sağlam olur. Bu insanlar həmyaşıdları ilə müqayisədə ən azı 7 yaş gənc görünür. Xalı çox olan insanların sümükləri də normaldan güclü olur.

Bir çox insanın bədənində təxminən 30-40 xal olur, amma bəzilərində bu say 600-ə qədər yüksəlir.




**QOÇ** - Astroloji göstəricilərə görə, qarşınızda anlaşılmaz bir gün dayanıb. Odur ki, bu tarixdə qeyri-ənənəvi işlərə aludə olmamalı, sabitliyinizi təmin etməlisiniz. Səhhətinizi qoruyun.

**BUĞA** - Ağıllı addımlarınız ətrafda hər şeyin xeyrinizə dəyişəcəyinə təkan verməkdədir. Bu isə gün ərzində fəaliyyətlə bağlı uğurlarınızın start götürməsinə imkan yaradacaq.

**ƏKİZLƏR** - Daxili gərginliyiniz günorta saatlarından etibarən aradan qalxmağa başlayacaq. Bu isə nəzərdə tutduğunuz planların icrasını sürətləndirəcək. Amma sözünüzün ağası olmağı da bacarın.

**XƏRÇƏNG** - Bürcünüzdə bərqərar olan mənfi yüklü Ay sizə ümumi gərginlik vəd edir. Bu isə hər addımda daha da ehtiyatlı davranmağınızı tələb edir. Yeni təkliflərə razılıq verməyin.

**ŞİR** - Nahara qədərki süstlüyünüzü nəzərə almasaq, qalan müddətdə işləriniz qaydasında gedəcək. İndi siz puldan daha çox münasibətləri tənzimləməyə səy göstərməlisiniz. Digər işlər düzələndir.

**QIZ** - Bu gün özünüzü olduqca ciddi aparmalısınız. Çünki istənilən xırda zarafat münaqişəyə səbəb ola bilər. İmkanlı adamlar vasitəsilə problemlərinizi aradan qaldırmağa çalışın.

**TƏRƏZİ** - Astroloji göstəricilər qismən gərgin gün yaşayacağınızı bəyan edir. Hər hansı mübahisəyə, riskli iş və sövdələşmələrə "yox" deməlisiniz. Günorta saatlarında xətakar insanlardan uzaq olun.

**ƏQRƏB** - Bəxtinizə təzadlı gün çıxıb. Belə ki, nahara qədər qarşılaşacağınız uğurlar sonrakı müddətdə tamamilə əks istiqamətə yönələ bilər. Odur ki, yalnız günün birinci yarısında aktiv olmalısınız.

**OXATAN** - Ümumi ovqatınız yüksək olduğundan xırda gərginliklər gözünüzə görünməyəcək. Amma mistik düşüncələrə də qapılmaq olmaz. Başınızın üstündə yalnız Tanrı qüdrətini hiss edin.

**OĞLAQ** - Qarşınızda duran vəzifələrin öhdəsindən məsuliyyətlə gəlməyə çalışın. İndi nüfuzunuzu artırmaq üçün imkanlarınız genişdir. İşdən sonra yaxınlıqda yaşayan ünvanlara qonaq getmək olar.

**SUTÖKƏN** - Yaxşı olar ki, bütün vacib işlərinizi bu gün başa çatdırasınız. Ən azı ona görə ki, sonrakı günlərdə buna imkan tapmayacaqsınız. Özünüzü hər addımda bədxahlardan qorumağa çalışın.

**BALIQLAR** - Əgər maddi vəziyyətiniz imkan vermirsə, uzaq yola çıxmaq planınızı təxirə salın. Yoxsa səfər boyu gərginlik sizdən əl çəkməyəcək. Şəxsi büdcənizin qayğısına qalmağa çalışın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kök qadınlar daha tez ölür, çünki...



Kök qadınların qocalmadan ölmək riski nərmə-nazik qadınlarla müqayisədə düz 2 dəfə artıqdır. Lenta.ru saytının xəbərinə görə, eksperiment zamanı alimlər yaşı 20-80 arasında olan təxminən 5000 qadını müayinə edib. Məlum olub ki, kök qadınların 60 yaşadək yaşamaq şansı daha azdır. Əgər artıq çəki hələ gənc yaşlardan yığılıbsa, bu zaman risk daha yüksəkdir. Alimlər bildirir ki, bütün ömrü boyu artıq çəkidən əziyyət çəkən xanımlar digərləri ilə müqayisədə təxminən 8 il az yaşayır.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300